**Təhsil millətin gələcəyidir!**

Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

5 sentyabr 2026-cı il №33 (9186) www.muallim.edu.az muallim@media.edu.az

# AZƏRBAYCAN BUNDAN SONRA DA BEYNƏLXALQ MƏSƏLƏLƏRDƏ ÇOXTƏRƏFLİLİK PRİNSİPLƏRİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNƏ ÖZ TÖHFƏSİNİ VERƏCƏK

## Prezidentin Bişkek səfərinin xronikası

**Avqustun 31-də Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın Baş naziri ilə görüşü keçirilib**

**Avqustun 31-də Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstan Prezidenti ilə görüşü olub**

**Avqustun 31-də Azərbaycan və İran prezidentləri görüşüblər**

**Avqustun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 6-cı Dünya Köçəri Oyunlarının açılış mərasimində iştirak ediblər**

**Avqustun 31-də Bişkekdə 6-cı Dünya Köçəri Oyunlarının açılış mərasimi keçirilib**

**Sentyabrın 1-də Prezident İlham Əliyevin Bişkekdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub**



**Bir ildən bir az çox müddət əvvəl Azərbaycan və Ermənistan sülh sazişinin mətnini paraflayaraq 30 illik münaqişəyə son qoydular. Beləliklə, çoxillik münaqişə zonası olmuş Cənubi Qafqaz bölgəsi sülh zonasına çevrilməkdədir. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi 30 ildən sonra, üç il əvvəl icra edildi. Azərbaycan artıq Ermənistana neft məhsulları tədarük edir və üçüncü ölkələrin yüklərinin tranzitini təmin edir. Ermənistanla birlikdə qarşılıqlı ticarətin həcminin artırılması, onun nomenklaturasının genişləndirilməsi və yeni yerüstü nəqliyyat kommunikasiyalarının yaradılması üzərində çalışırıq. Lakin təəssüf ki, BMT bu qətnamələrin icrasında heç bir rol oynamayıb. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tamamilə özü bərpa edib. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin qısa müddətdə icrası üçün müvafiq mexanizmlərin hazırlanması tələb olunur. Bu həyata keçirilərsə, BMT-nin nüfuzunun və təşkilatın münaqişələrin nizamlanmasındakı rolunun artmasına xidmət edər. Son vaxtlara qədər dörd il ərzində Qoşulmama Hərəkatına rəhbərlik etmiş Azərbaycan bundan sonra da beynəlxalq məsələlərdə çoxtərəflilik prinsiplərinin möhkəmləndirilməsinə öz töhfəsini verəcək.**

*Prezident İlham Əliyevin "ŞƏT plyus" formatında görüşdəki çıxışından (1 sentyabr 2026-cı il)*




## "Bu məktəb həm də dostluğumuzun, qardaşlığımızın bir rəmzidir"



"Mirzə Uluqbəy adına məktəb bu gün artıq orada təhsil ala biləcək şagirdlərin demək olar ki, hamısını qəbul edib. Məktəb təxminən 1000 nəfərlikdir, son məlumatlara görə isə orada artıq bir neçə yüz şagird təhsil alır və bu məktəb həm də dostluğumuzun, qardaşlığımızın bir rəmzidir".

Bax səh.2

## Böyük Qayıdışın ilk şagirdlərinin doğma Füzulidə təhsilə başlamalarının şahidi olmaq qürurvericidir



"Füzulinin işğaldan azad olunmasından sonra Böyük Qayıdış çərçivəsində şəhərimizə qayıdışımız həyatımızın ən qürurverici hadisələrindən biri oldu. Bu qayıdış təkcə insanların öz doğma yurdlarına dönüşü deyil, həm də burada həyatın, təhsilin, mədəniyyətin və gələcəyin yenidən qurulması deməkdir. Bu üç il ərzində şagirdlərimizlə bağlı çoxlu gözəl və unudulmaz xatirələrimiz yaranıb.

Bax səh.2

## Mir Cəlal Paşayevin Azərbaycan müəllimlərinin IV qurultayında çıxışı



"Cavanlıqda mən kənd müəllimi olmuşam. Düzdür, indi mənim adıma əlib, professor, alim deyirlər, amma mən müəllim adı ilə həmişə fəxr etmişəm və indi də edirəm. Mədəni cəmiyyətin, mədəni ailənin, mədəni vətəndaşın ilk mənbəyi, ilk müəllimi olduğu zümrə müəllimlərdir. Gənc nəslin ilk nümunə, ibrət götürdüyü, sözünü, işini, hərəkətini təqlid etdiyi şəxs xalq müəllimidir.

Bax səh.4

## AMEA və ETN-in rəhbərliyi Azıx mağarasında aparılan tədqiqatlarla tanış olub



Azərbaycan Milli Elmlər Akademiyasının və Elm və Təhsil Nazirliyinin rəhbərliyi və nümayəndələri Qarabağda Kiçik Qafqaz dağlarının cənub-şərq yamacında, dəniz səviyyəsindən 900 metr yüksəklikdə yerləşən ilk insan məskənlərindən biri olan Azıx mağarasını ziyarət edib, burada beynəlxalq ekspedisiya tərəfindən aparılan arxeoloji qazıntı işləri ilə tanış olublar.

Bax səh.3

## Valideyn-dövlət-özəl əməkdaşlığı əsasında seçilən özəl bağçalar

Bax səh.3

## "Əsl gözlədiyim xəbər ən sonda gəldi"

Bax səh.5

## ETİHİ üzvləri Müəllimlərin XXII Yay İdman Oyunlarını 6 medalla başa vurublar

Bax səh.7

## "Maarifçi" mənə yaxşı bacarıqlar da qazandıracaq

Bax səh.8

# PREZİDENT İLHAM ƏLİYEV: "BU MƏKTƏB HƏM DƏ DOSTLUĞUMUZUN, QARDAŞLIĞIMIZIN BİR RƏMZİDİR"

*Mirzə Uluqbəy adına məktəb bu gün artıq orada təhsil ala biləcək şagirdlərin demək olar ki, hamısını qəbul edib. Məktəb təxminən 1000 nəfərlikdir, son məlumatlara görə isə orada artıq bir neçə yüz şagird təhsil alır və bu məktəb həm də dostluğumuzun, qardaşlığımızın bir rəmzidir. Həmçinin biz Sizinlə birlikdə Xankəndidə özbək dostlarımız tərəfindən rekord qısa müddətdə yaradılmış tikiş fabrikini ziyarət etmişik. Biz Xankəndidə birlikdə kollektivlə də görüşmüşük. Təbii ki, Qarabağ regionunda iş yerlərinin yaradılması, - xüsusilə qadınlar üçün, - hazırda böyük əhəmiyyət daşıyır. Yenə də müasir istehsal müəssisəsinin yaradılması və 200-dən çox iş yerinin açılması üzrə ilk investisiya layihəsi Özbəkistan tərəfindən həyata keçirilir. Buna görə Sizə çox minnətdaram.*



## Böyük Qayıdışın ilk şagirdləri kimi doğma Füzulidə, müasir və yeni məktəbdə təhsilə başlamalarının şahidi olmaq qürurvericidir

**2020-ci ildə 44 günlük Vətən müharibəsinin 21-ci günündə çırpındığı azadlığa qovuşmuşdu Füzuli. Azadlıq ona yeni nəfəs, dinclik, bərpa gətirdi. İndi tək şəhər və kəndləri deyil, sakinləri də bu bərpanın bir hissəsidir. Yenidən qurulan infrastruktur təkcə binalar deyil, burada böyüyən, canlanan xatirələrdir. Viranlığa abadlığı ilə qalib gəlir. Abadlığın növbəti göstəricisi burada 2023-cü ildən fəaliyyətə başlayan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta ümumtəhsil məktəbidir. 960 yerlik məktəb binasını Özbəkistan Prezidenti özbək xalqı adından Qarabağa hədiyyə olaraq inşa etdirib. Məktəbdə 616 uşaq təhsil alır, onların təlim-tərbiyəsi ilə 32 nəfər məşğul olur.**







### Füzuli - Zəfər tariximizin bir parçası

Dərslərin başlamasına az qalır. Elə buna görədir ki, məktəbə gedərkən yol boyu qarşımıza çıxan valideynlər ləvazimatlarla dolu paketlərlə evlərinə yol almışdılar. Müəllimlər məktəbdədir. Yeni tədris ilinə hazırlıq prosesi öz axarında davam edir. Bizi ilk olaraq məktəbin direktoru Həcər Mahmudova qarşılayır.

O, Zəfər tariximizin parçası olan Füzulidə fəaliyyət göstərməkdən qürur hissi keçirdiyini bildirir. Qısa müddət ərzində fəaliyyət göstərsə də artıq M.Uluqbəy adına 1 nömrəli tam orta ümumtəhsil məktəbin məzunları müxtəlif ali təhsil müəssisələrinə qəbul olunublar. 2025-2026-cı tədris ilində məktəbin 15 məzunu tələbə adını qazanıb. Məzunlardan 5 nəfərin qardaş dövlət Özbəkistan tərəfindən təqdim olunan qrant əsasında ödənişsiz təhsil imkanından yararlanması məktəb kollektivi üçün böyük sevinc və qürur mənbəyidir. Belə bir imkanın yaradılması Azərbaycan və Özbəkistan arasında təhsil sahəsində qarşılıqlı etimadın və əməkdaşlığın praktiki nəticəsi kimi qiymətləndirilə bilər.

Təhsil sahəsindəki əməkdaşlıqdan danışan müsahibimiz bir neçə gün əvvəl hər iki ölkə başçısının iştirakı ilə Daşkənddə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin açılış mərasimində məktəb kollektivinin də iştirakından söz açır.

"Səfər müddətində məktəbin rəhbər və müəllim heyəti Özbəkistan Milli Pedaqoji Universitetində müxtəlif istiqamətlər üzrə təşkil olunan təlim və seminarlarda iştirak edib. Müxtəlif fənn istiqamətlərini əhatə edən bu təlimlər müəllimlərin müasir tədris metodları, pedaqoji yanaşmalar və təhsil prosesinin təşkili ilə bağlı bilik və təcrübələrini zənginləşdirmək baxımından mühüm imkan yaradıb. Lakin səfərin əhəmiyyəti yalnız auditoriyalarda keçirilən təlimlərlə məhdudlaşmır. Daşkəndin müasir siması ilə yanaşı, bu ölkənin tarixi və mədəni irsini əks etdirən məkanlara, görməli yerlərə səfərlər təşkil olunub".

### "Bu qayıdış həyatın, təhsilin, mədəniyyətin və gələcəyin yenidən qurulması deməkdir"

6 ildir azadlığa qovuşan Füzuli indi şagirdlərini ölkə xaricinə təhsil üçün yola salır. O gənclər ki, onlar doğma torpağın inkişafında öz töhfələrini verəcəklər.

Ləman Məstalıyeva ilə söhbətimizi davam edirik. Ləman müəllim məktəb fəaliyyətə başladığı gündən burada çalışır. Biologiya müəllimidir. Eyni zamanda, təlim-tərbiyə işləri üzrə direktor müavinidir. O, da Böyük Qayıdışın və inkişafın bir parçası olmağın məsuliyyətinin böyüklüyündən danışır:

"Füzulinin işğaldan azad olunmasından sonra Böyük Qayıdış çərçivəsində şəhərimizə qayıdışımız həyatımızın ən qürurverici hadisələrindən biri oldu. Bu qayıdış təkcə insanların öz doğma yurdlarına dönüşü deyil, həm də burada həyatın, təhsilin, mədəniyyətin və gələcəyin yenidən qurulması deməkdir. Bu üç il ərzində şagirdlərimizlə bağlı çoxlu gözəl və unudulmaz xatirələrimiz yaranıb. Mənim üçün ən böyük təəssürat onların Böyük Qayıdışın ilk şagirdləri kimi doğma Füzulidə, müasir və yeni məktəbdə təhsilə başlamalarının şahidi olmaqdır. İlk gün onların gözlərindəki sevinc, həyəcan və maraq bu gün də yaddaşımdadır".

### Gələcəyə ümid olan gənclərin yetişdiyi təhsil ocağı

Məktəbin ən yeni avadanlıqlarla təchiz edilmiş laboratoriyası, kitabxanası göz oxşayır. Müsahibimiz davam edir: "Fəaliyyətə başladığımız ilk vaxtlarda şagirdlərin laboratoriyalara daxil olaraq avadanlıqlara maraqla baxmaları, kitabxananı kəşf etmələri, müxtəlif layihə və tədbirlərdə həvəslə iştirak etmələri, həyəcanlarını xatırladıqca... O anları mütləq görmək lazım idi. Üç il ərzində onların necə dəyişdiyini, daha inamlı, fəal və təşəbbüskar olduqlarını müşahidə etdik. Əvvəlcə böyük auditoriya qarşısında danışmağa çəkinən şagirdlər zaman keçdikcə tədbirlərdə çıxış etməyə, layihələr təqdim etməyə, müsabiqələrdə məktəbimizi layiqincə təmsil etməyə başladılar.

Amma düşünürəm ki, bu üç ilin ən böyük qazancı yalnız əldə olunan nəticələr deyil. Ən böyük qazancımız uşaqların gözlərində gələcəyə olan inamı görməkdir. Biz Füzulinin yenidən qurulmasının yalnız şahidi olmadıq, həm də bu şəhərin təhsil tarixinin yeni səhifəsinin yazılmasında iştirak etdik.

Bu gün məktəbimizin şagirdlərinə baxanda anlayırıq ki, burada yalnız yeni bir məktəb açılmayıb. Burada yeni arzular, yeni ümidlər və yeni gələcəklər formalaşıb. Bu isə bizim üçün ən böyük qürur və ən gözəl təəssüratdır".

Özbəkistan səfərində iştirak edən Ləman xanım təəssüratlarını bölüşür:

"Özbəkistana səfərimiz mənim üçün xüsusi məna daşıyırdı. Çünki burada keçirilən ixtisasartırma təlimlərində iştirak etməklə biz yalnız öz peşəkar inkişafımıza töhfə vermədik, eyni zamanda Azərbaycan təhsilinin, o cümlədən işğaldan azad edilmiş ərazilərdə formalaşan yeni təhsil mühitinin təcrübəsini də təbliğ etmək imkanı qazandıq.

Səfərimizin ən yaddaqalan və qürurverici məqamlarından biri də Daşkənddə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetinin açılış mərasimində hər iki ölkə prezidentinin iştirakı idi. Bu tarixi hadisənin şahidi olmağın verdiyi həyəcanı isə sözlərlə ifadə etmək çətindir. Nizami Gəncəvi kimi dünya ədəbiyyatının və Azərbaycan mədəniyyətinin böyük nümayəndəsinin adını daşıyan belə bir ali təhsil müəssisəsinin Özbəkistanda fəaliyyət göstərməsi iki qardaş xalq arasındakı möhkəm mənəvi və mədəni bağların daha bir göstəricisidir.

Özbəkistana səfərimiz və orada keçirdiyimiz ixtisasartırma təlimləri mənim üçün olduqca yaddaqalan və faydalı oldu. Bir neçə gün ərzində kollektivimizlə birlikdə həm peşəkar biliklərimizi artırdıq, həm də qardaş Özbəkistanın təhsil mühiti, mədəniyyəti və insanları ilə yaxından tanış olduq. Təlim müddətində müasir pedaqoji yanaşmalar, yeni tədris metodları və müəllimlərin peşəkar inkişafı ilə bağlı çox dəyərli məlumatlar əldə etdik. Ən əsası isə öyrəndiklərimizi Füzulidəki məktəbimizdə tətbiq etmək üçün yeni ideyalarla geri qayıtdıq"

### Füzuli tarixin yenidən yazılıdğı məkan

Bəli, indi azad torpağın şagirdlərinə təhsil sahəsində əldə edilmiş ən son yeniliklər öyrədilir. Ləman müəllimin bizə danışacağı, danışmaqdan doymayacağı məqamlar çoxdur. Söhbətimizə riyaziyyat müəllimi Seymur İsmayılov da qoşulur. Seymur müəllim 10 ildən çox müxtəlif regionlarda müəllim kimi fəaliyyət göstərib. 2024-cü ildən isə burada fəaliyyətinə davam edir.

Seymur müəllim doğma Füzuli, buradakı fəaliyyəti, gənclərin təhsilində rolu, eləcə də Özbəkistan səfərindən az da olsa məlumat verir.

"Məktəbimizin şagirdlərinin uğurları hər keçən il daha da yüksəlir. Üç övladım da bu məktəbdə təhsil alır. Doğulduğum Füzuli şəhərində hazırda övladlarımın təhsil alması mənim üçün çox böyük qürur mənbəyidir. Təsəvvür edin, 30 ilə yaxın bir dövrü yurdundan ayrı qalmaq, "məcburi köçkün" adı altında yaşamaq, bu gün isə məhz Füzulidə öz övladımın təhsil aldığı məktəbdə təhsil prosesində iştirak etmək. Füzuli tarixin yenidən yazıldığı yerdir"

İndi azad torpaqlardan səfərlərə gedirlər.

"Bir həftə ərzində Özbəkistanda seminar və konfranslarda iştirak etdik. Eyni zamanda universitet rəhbərliyinin qəbulunda olduq, prezident məktəbi və islam mədəniyyəti mərkəzi ilə yaxından tanış olduq. Bir neçə təlimlərdə iştirak etdik. Heydər Əliyev adına Mədəniyyət mərkəzində olduq və iki ölkənin ortaq mədəniyyəti haqqında xeyli məlumat əldə etdik".

Bu torpaqlara hər qayıdış bir başlanğıcdır. İllərlə sükuta qərq olmuş yurdumuz indi xoşbəxt sakinlərin səsi ilə əbədi qayıdışın sevincini yaşayır.

**Rəmziyyə HƏSƏNOVA,**
**Qarabağ və Şərqi Zəngəzur üzrə regional təmsilçi**

# AMEA və ETN-in rəhbərliyi Azıx mağarasında aparılan tədqiqatlarla tanış olub





**Azərbaycan Milli Elmlər Akademiyasının və Elm və Təhsil Nazirliyinin rəhbərliyi və nümayəndələri Qarabağda Kiçik Qafqaz dağlarının cənub-şərq yamacında, dəniz səviyyəsindən 900 metr yüksəklikdə yerləşən ilk insan məskənlərindən biri olan Azıx mağarasını ziyarət edib, burada beynəlxalq ekspedisiya tərəfindən aparılan arxeoloji qazıntı işləri ilə tanış olublar. Bu barədə "Azərbaycan müəllimi"nə AMEA-dan məlumat verilib.**



## Elm tarixində ilk dəfə olaraq Azıx mağarasının bir neçə girişdən ibarət olduğu müəyyən edilib

Bildirilib ki, əvvəlcə qazıntı sahələrindən tapılmış eksponatlara və onların ilkin laborator analizlərinə baxış keçirilib.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, elm və təhsil nazirinin müavini İdris İsayev, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, ETN Elm, ali və peşə təhsili şöbəsinin müdiri Turxan Süleyman və başqaları Azıx mağarasında aparılan qazıntı yerlərini gəzib və tədqiqatlar barədə ətraflı məlumat alıblar.

AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru, tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev, Azıx beynəlxalq ekspedisiyasının rəhbəri, Almaniyada fəaliyyət göstərən Leiza İnstitutunun Traceologiya və Nəzarətli Eksperimentlər Laboratoriyasının (TraCEr) müdiri Joao Marreiros, Azıx ekspedisiyasının rəhbəri, Arxeologiya və Antropologiya İnstitutunun böyük elmi işçisi və Qarabağ Universitetinin nəzdində fəaliyyət göstərən Azıx arxeoloji tədqiqat və analiz laboratoriyasının müdiri Əjdər Babazadə Azıx mağarası tədqiqatlarının tarixi, 2023-cü ildən fəaliyyətə başlayan beynəlxalq ekspedisiyanın fəaliyyəti, ərazidən tapılan maddi-mədəniyyət nümunələri haqqında ətraflı məlumat veriblər.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Azıx beynəlxalq ekspedisiyasının üzvləri ilə son illərdə AMEA Rəyasət Heyətində keçirilən görüşlərindən danışaraq, bu il arxeoloji qazıntılarda iştirak edən xarici ölkə alimlərinin tərkibinin genişləndirildiyini və mühüm elmi nəticələrin əldə edildiyini bildirib. Elm tarixində ilk dəfə olaraq Azıx mağarasının bir neçə girişdən ibarət olduğu müəyyən edilib və ikinci girişdən daxil olmaqla mağaranın yeni istiqamətdə tədqiqinə başlanılıb. Aparılan tədqiqatların nəticələrini əks etdirən elmi məqalələrin dünyanın nüfuzlu elmi jurnallarında çap edilməsinin əhəmiyyətini vurğulayan akademik İsa Həbibbəyli birgə elmi ekspedisiyaların elm və təhsil sahəsində inteqrasiyanın genişləndirilməsi baxımından əhəmiyyətli olduğunu bildirib.

Elm və təhsil nazirinin müavini İdris İsayev, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova birgə elmi ekspedisiyanın işində ali məktəblərin müəllimləri və tələbələrinin iştirakının faydalı olduğunu qeyd edib, təkliflərini nəzərə çatdırıblar.

Azıx beynəlxalq arxeoloji ekspedisiyasının həmrəhbəri Joao Marreiros Avropa ölkələrində Azıx mağarasına bənzər qədim tarixə, böyük əraziyə və çoxqatlı mədəni təbəqəyə malik insan düşərgəsinə rast gəlinmədiyini bildirib, aparılan tədqiqatların dünya elmi üçün də əhəmiyyətli olduğunu ifadə edib.

Sonda beynəlxalq ekspedisiyanın üzvləri ilə xatirə şəkilləri çəkdirilib, arxeoloqlara hədiyyələr təqdim olunub.

Qeyd edək ki, 2023-cü ildən fəaliyyət göstərən Azıx beynəlxalq arxeoloji ekspedisiyasının işinə Azərbaycan alimləri ilə yanaşı, Almaniya, Portuqaliya, ABŞ, Danimarka, Türkiyə, İngiltərə, Polşa, Yunanıstan, Slovakiya, Pakistan, Fransa kimi ölkələrdən də tədqiqatçılar cəlb edilib. Eyni zamanda, Qarabağ Universiteti, Azərbaycan Dillər Universiteti, İngiltərənin Oksford Universiteti və Portuqaliyanın Algarve Universitetinin tələbə və mütəxəssisləri də ilk gündən qazıntı işlərində və tədqiqatlarda yaxından iştirak edirlər.

# "Miqrasiya idarəçiliyi: rəqəmsallaşma, tendensiyalar və çağırışlar"



## "Danışır təcrübə" layihəsinin XII görüşünün qonağı Vüsal Hüseynov olub

**Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə həyata keçirilən "Danışır təcrübə" layihəsinin XII görüşü keçirilib. Görüşün qonağı Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov olub.**

STEAM İnnovasiya Mərkəzində təşkil olunan görüşdə Vüsal Hüseynov "Miqrasiya idarəçiliyi: rəqəmsallaşma, tendensiyalar və çağırışlar" mövzusunda çıxış edib.

Görüş zamanı dövlət miqrasiya siyasəti, miqrasiya idarəçiliyində rəqəmsal transformasiya və yeni yanaşmalar, peşəkar inkişaf, beynəlxalq təcrübənin idarəçilikdə tətbiqi, insan kapitalının inkişafı məsələləri müzakirə olunub.

Dövlət Miqrasiya Xidmətinin rəisi çıxışı zamanı təhsil və karyera yolu, rəhbərlik təcrübəsi, müasir idarəçilik yanaşmaları və dövlət qulluqçularının qarşısında duran çağırışlarla bağlı fikirlərini iştirakçılarla bölüşüb.

Daha sonra görüş interaktiv müzakirələrlə davam edib, iştirakçıların sualları cavablandırılıb.

Qeyd edək ki, "Danışır təcrübə" layihəsi çərçivəsində keçirilən görüşlər əməkdaşların davamlı inkişafına, liderlik və idarəetmə bacarıqlarının gücləndirilməsinə, eləcə də müasir çağırışlara cavab verən peşəkar kadr potensialının formalaşdırılmasına xidmət edir.



# Valideyn-dövlət-özəl əməkdaşlığı əsasında seçilən özəl bağçaların siyahısı açıqlanıb

**Məktəbəqədər təhsildə valideyn-dövlət-özəl əməkdaşlığı əsasında maliyyələşmə müsabiqəsinin qalibi olan özəl məktəbəqədər təhsil müəssisələrinin siyahısı açıqlanıb. Nəticələrə əsasən, 124 özəl məktəbəqədər təhsil müəssisəsi müsabiqənin qalibi olub.**

Seçilmiş məktəbəqədər təhsil müəssisələrinin adları, ünvanları, qəbul planı, dövlət dəstəyinin aylıq məbləği və valideynin üzərinə düşən aylıq ödəniş məbləği barədə ətraflı məlumatla keçid vasitəsilə tanış ola bilərsiniz.

Qeyd edək ki, növbəti mərhələdə müsabiqənin nəticələrinə uyğun olaraq, dövlət dəstəyi ilə özəl məktəbəqədər təhsil müəssisələrində uşaqlar üçün əlçatan imkanların genişləndirilməsi və qəbul prosesinin təşkili təmin ediləcək. Eyni zamanda maliyyələşmə müqavilələri çərçivəsində həmin müəssisələrin fəaliyyətinin monitorinqi həyata keçiriləcək.

Müsabiqənin əsas məqsədi 2026-2027-ci tədris ilində həm paytaxtda, həm də regionlarda məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsi, valideynlər üçün əlavə seçim imkanlarının yaradılması və dövlət-özəl əməkdaşlığının inkişaf etdirilməsidir.

# Paytaxt təhsil işçilərinin sentyabr konfransı keçirilib

**Bakı şəhərindəki ümumi təhsil və məktəbdənkənar təhsil müəssisələri rəhbərlərinin iştirakı ilə keçirilən konfransın I hissəsində Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) direktor müavini, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri vəzifəsini müvəqqəti icra edən Nərminə Hüseynova, Azərbaycan Respublikası Təhsil İnstitutunun (ARTİ) Təhsilverənlərin peşəkar inkişaf mərkəzinin direktoru Nəzakət Mehdiyeva, Elm və Təhsil Nazirliyinin, MÜTDA və BŞTİ-nin müvafiq struktur bölmə, ümumi təhsil müəssisələrinin rəhbərləri, metodistlər iştirak ediblər. Bu barədə "Azərbaycan müəllimi"nə BŞTİ-dən məlumat verilib.**



Konfrans Dövlət Himninin səsləndirilməsi və Vətən şəhidlərinin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Konfrans iştirakçılarını salamlayan MÜTDA-nın direktor müavini, BŞTİ-nin müdiri vəzifəsini müvəqqəti icra edən Nərminə Hüseynova yeni tədris ilinin başlanması münasibətilə təhsil işçilərini təbrik edib, onlara uğurlar arzulayıb. 2025— 2026-cı tədris ili ərzində təhsil müəssisələrində görülən işlər və əldə olunan nəticələr barədə təqdimatla çıxış edən N.Hüseynova əsas göstəricilər üzrə dinamikanı diqqətə çatdırıb, mövcud məsələlər və onların həlli istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edib, yeni tədris ili üzrə prioritetlərə toxunaraq qarşıda duran əsas hədəfləri diqqətə çatdırıb.

N.Hüseynova bildirib ki, yeni tədris ilində də ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi, qabaqcıl pedaqoji təcrübələrin yayılması, rəqəmsal və innovativ yanaşmaların tətbiqinin genişləndirilməsi, istedadlı şagirdlərin dəstəklənməsi, həmçinin məktəb—valideyn əməkdaşlığının daha da möhkəmləndirilməsi və digər istiqamətlər paytaxt təhsilinin qarşısında duran hədəflərinin mühüm tərkib hissəsidir.

BŞTİ-nin müdir müavini Turanə Məcidli, ARTİ-nin Təhsilverənlərin peşəkar inkişaf mərkəzinin direktoru Nəzakət Mehdiyeva, BŞTİ-nin Keyfiyyətə nəzarət sektorunun müdiri Zinyət Əmirova, Məktəbdənkənar fəaliyyətlərin təşkili sektorunun müdiri Günay Qurbanova məktəbdaxili qiymətləndirmənin obyektivliyi, zəif nəticə göstərən şagirdlərlə iş, müəllimlər arasında əməkdaşlıq və təcrübə mübadiləsi, keyfiyyət monitorinqləri və buraxılış imtahanlarının nəticələrinin müqayisəli təhlili, məktəbdənkənar fəaliyyətlərin əhatəliliyi və nəticəyönümlülüyü ilə bağlı təqdimatlar edib, qeyd olunan istiqamətlər üzrə qarşıda duran vəzifə və hədəfləri diqqətə çatdırıblar.

Konfransın II hissəsi paytaxt üzrə məktəbəqədər təhsil müəssisələri rəhbərlərinin iştirakı ilə keçirilib.

Qeyd edək ki, konfransın ikinci günü BŞTİ-nin tabeliyindəki təhsil müəssisələrinin rəhbərləri, fənn müəllimləri, metodistlər və məktəb psixoloqlarının iştirakı ilə panel müzakirələr təşkil olunub, növbəti dərs ili üçün fəaliyyət planı hazırlanaraq müvafiq təkliflər təqdim olunub.




# 1934-cü ildən təhsilimizə işıq salırıq

# Qəzetin arxivindən

## Mir Cəlal Paşayevin Azərbaycan müəllimlərinin IV qurultayında çıxışı



**“Cavanlıqda mən kənd müəllimi olmuşam. Düzdür, indi mənim adıma ədib, professor, alim deyirlər, amma mən müəllim adı ilə həmişə fəxr etmişəm və indi də edirəm. Mədəni cəmiyyətin, mədəni ailənin, mədəni vətəndaşın çox minnətdar olduğu zümrə müəllimlərdir. Gənc nəslin ilk nümunə, ibrət götürdüyü, sözünü, işini, hərəkətini təqlid etdiyi şəxs xalq müəllimidir.**

Müəllim xalq ziyalılarının xarakterik simasıdır. İctimai şüurun müəyyənləşməsi, billurlaşmasında, yeni nəslin cismən, zehnən müasir yetişməsində müəllimlərin xidmətləri böyükdür və cild-cild kitablara layiqdir.

Müəllim adının qüdsiyyətini qorumaq, daha da yüksəltmək bizim hər birimizin vəzifəsidir. Bu, hər bir müəllimin vəzifəsidir. Zəhmətsiz nemətə tamah salan, böyüklərə yaltaqlanan, özündən asılı olanlardan istifadə etməyə çalışan adam müəllim adına yaddır.

Uşaqlar ən həssas, ən ayıq, ən səmimi insanlardırlar. Onların yanında bir sözün yalan çıxdımı, dərhal hörmətin düşəcək. Səni qaba bir hərəkətdə, çirkin bir əməldə gördülərmi, onların nəzərində nəinki təkcə sənin, bütün müəllim adı daşıyanların nüfuzu enəcək. Uşaqların iti müşahidə, amansız mühakiməsi qarşısında ehtiyatlı olun! Onların hörmətini qazanmağa çalışın. Camaat arasında hörmət qazanmayan müəllimin sözündə kəsər olmaz. Müəllimlər bilir ki, dəcəl uşağı təlqin edib ləyaqətli vətəndaş yetirəndə duyduğun sevinc qibtəyə layiqdir.

Ədəbiyyat dərsini mən şəxsən yalnız ədəbiyyat dərsi kimi düşünmürəm. Uşaqların, gənclərin xarakterinin kamilləşməsində, müəyyən peşəni sevməsində, həyata münasibətlərinin billurlaşmasında ədəbiyyatın, xüsusən, mühüm əsərlərin təsiri böyükdür. Ədəbiyyatın təbliği müəllimlərimizin şərəf işidir. Bu ədəbiyyat həm fikri, həm etik, həm estetik tərbiyənin kəsərli silahıdır. Bu, ədəbiyyatı sevdirmək — uşağın zehnini işıqlandırmaq deməkdir. Odur ki, ədəbiyyat dərsinin məzmununa, metoduna, təşkilinə artıq diqqət yetirilməlidir. Yenidən qurulmaqda olan məktəblərimizdə ədəbiyyat proqramlarının mütləq yenidən tərtibi və geniş müzakirəsinə nail olmalıyıq.

Ümumiyyətlə, orta məktəb proqram və dərslikləri köhnəlmişdir. Orta məktəb, ədəbiyyat proqramlarının, dərsliklərinin yaradılmasında orta məktəb müəllimləri iştirak etmirlər və ya az iştirak edirlər. Məgər, 20-25 illik zəngin təcrübə sahibi olan, məktəbin və məktəblinin hazırkı tələbini hər kəsdən yaxşı duyan və bilən qocaman müəllimlər bu işə az fayda verə bilərlər? Məncə, burada da orta məktəb müəllimlərinin hüququnu bərpa etmək lazımdır.

Məktəbi və təhsil-tərbiyəni yenidən quran fədakar müəllimlərimizə hərtərəfli kömək etmək üçün bundan sonra da bir sıra faydalı tədbirlər görmək lazım gələcəkdir. Xalq maarifinin, pedaqojisinin tarixi, klassik müəllimlər haqqında monoqrafiyalar yaradılmalıdır. Akademiyanın ictimai elmlər bölməsində heç olmasa xüsusi şöbə yaradılmalıdır.

Bakıda mühəndis evi, həkim evi, yazıçı evi olduğu kimi, müəllim evi də yaradılmalıdır. Belə bir mədəniyyət ocağına ehtiyac çoxdur.

**“Azərbaycan müəllimi” qəzeti, 24 noyabr 1960-cı il, №96**

## “Ədəbiyyatın tədrisinə dair bəzi qeydlər”

**Orta məktəblərdə ədəbiyyat fənninin tədrisi xalqın həyatı, mənəviyyatı və ictimai varlığı ilə əlaqədar olmaqla çox mühüm məsələdir. Gənclərimizin düzgün tərbiyə olunması işində, onların dünyagörüşlərinin istiqamətləndirilməsində ədəbiyyatın nə qədər böyük əhəmiyyətə malik olduğu məlumdur. Sənətin, ədəbiyyatın təsir qüvvəsi çox böyükdür. Ədəbiyyat sənətin ən əyani və ən inandırıcı forması olmaq etibarı ilə tərbiyə işində çox böyük təsir gücünə malikdir. Şagird ədəbiyyat vasitəsilə mənsub olduğu xalqın ruhuna, mənəviyyatına daxil olur. Oxuduğu əsərlərdə, eşitdiyi nəğmələrdə uşaq ikən zümzüməsi ilə yuxuya getdiyi laylalarda xalqını tanıyır, onu sevir və həqiqi bir vətəndaş kimi yetişir. Şagird qrammatika fənni ilə dilinin qanun-qaydalarını öyrənirsə, ədəbiyyat vasitəsilə bu dilin nələrə qadir olduğunu, bu dilin əzəmət və böyüklüyünü görür, incəlik və gözəlliyinə heyran qalır.**

Şagird tarix elmi vasitəsilə əcdadının keçdiyi şərəfli yolları, xalqın apardığı mübarizəni faktlarla öyrənirsə, ədəbiyyat vasitəsilə əcdadının şanlı tarixini bədii lövhələrdə görür, onun keçmişi ilə yaşayır, qələbələri ilə fəxr edir. Coğrafiya elmi vətəninin böyüklüyünü, qüdrətini, iqlimini, təbii sərvətlərini, iqtisadi qüdrətini rəqəmlərlə öyrədirsə, ədəbiyyat vətənin mənəvi qüdrətini, mənəvi böyüklüyünü bədii lövhələrlə göstərir.

Beləliklə, ədəbiyyat elminin tədrisində fakt və rəqəmlərin, müəyyən ölçü və qaydaların o qədər də böyük əhəmiyyəti yoxdur. Bu elmin tədrisində bizə görə ən mühüm amil müəllimin fənnə olan böyük məhəbbəti, xalq ruhunu, xalq mənəviyyatını dərindən bilməsidir. Ədəbiyyat müəllimi hər şeydən əvvəl bəhs etdiyi məsələnin atəşi ilə yanmağı, duya-duya, hiss edə-edə, alışa-alışa danışmağı bacarmalıdır. Ədəbiyyat müəlliminin ağzından sözlər tökülməməlidir. Onun dediyi sözlərin arxasında ürəyi od tutub alışmalıdır. Bu mənada bizə elə gəlir ki, müəllim də bir aktyor olmalıdır. Müəllim bəhs etdiyi məsələlərin incəliklərini hiss etməsə, şagirdlərə aşılamaq istədiyi bir hiss, ya fikirləri özü yaşamasa, dediklərinin heç bir təsir qüvvəsi ola bilməz.

Ədəbiyyat müəllimi tədris etdiyi kitabın əsiri olaraq qalmamalıdır. Müəllim hər hansı yazıçının həyatını keçərkən o həyatın eniş-yoxuşları ilə enib qalxmalı, gecələr səhərə qədər masa arxasında yanan yazıçının həyatı ilə yanmalıdır. Yoxsa “filanıncı ildə anadan oldu, filanıncı ildə filan əsərləri yazdı və filanıncı ildə öldü” deyə cansız bir dil ilə, soyuq rəqəmləri saymaqla şagirdlərdə heç bir fikir, heç bir hiss oyatmaq olmaz.



Yazıçının həyatı mənalı həyatdır. Ədəbiyyat müəllimi şərəfli zəhmət və alın təri ilə dolu olan bu həyatı uşaqlara öyrədərkən rəqəmləri, faktları sadalamaqla kifayətlənməməli, şagirdlərə bu həyatın poeziyasını, məna və fəlsəfəsini aşılamalı və onlarda yaradıcı əməyə məhəbbət oyatmağa çalışmalıdır. Buna isə yalnız yüksək dərəcədə savad və böyük məhəbbətlə nail olmaq mümkündür. Şübhəsiz, tədris üsulları, metodik qanun-qaydalar da vacibdir. Lakin yazıçılıqdan başqa, bir ədəbiyyat müəllimi olmaq etibarı ilə mənə elə gəlir ki, ən vacib olan məsələ bilik və məhəbbətdir! Müəllimdə bilik və məhəbbət var isə, tədris üsulu özü-özünə gələcəkdir. Daha doğrusu, bu tədris üsulu da bilik və məhəbbətdən doğur.

Bu yaxın günlərdə mən Ağdam rayonuna getmişdim və orada bir məktəbin IX sinfində ədəbiyyat dərsinə qulaq asdım. Doğrusu, sinifdən çox bədbin çıxdım. Şagirdlər Zakirin həyatını danışırdılar. Lakin necə? Şagirdlər danışdıqca adama elə gəlirdi ki, canlı insan deyil, cansız qrammafon danışır. Şagirdlər dediklərini hiss etmir, əzbərlədiklərini tutuquşu kimi söyləyirdilər. Burada çox qəribə bir əhvalatın da şahidi oldum. Müəllim kitab cümlələrini eynilə əzbər deyən şagirdi saxlayıb, ona belə bir sual verdi:

- Zakir, M.F.Axundova nə yazmışdı?

Şagird nə qədər düşündüsə cavab verə bilmədi. Müəllim uşağa davam etməsini tapşırdı. Şagird yenə də eyni qayda ilə cümlə-cümlə kitabda yazılanları təkrar etdi, nəhayət, Zakirin M.F.Axundova yazdığı məktubdan da danışdı. Çox qəribədir. Bəs nə üçün sual veriləndə uşaq cavab tapa bilmədi?!

Demək, əgər şagird öz dediklərini başa düşsəydi, əzbərləməsəydi, müəllimin sualına cavab verə bilərdi. Əzbərçilik bizim şagirdlərimizi şüursuzluğa, fikirsizliyə gətirib çıxarır, bu isə çox qorxulu haldır. Ədəbiyyat müəllimlərimizin birinci vəzifəsi əzbərçiliyə qarşı mübarizə olmalıdır.

Dərsin ikinci yarısında müəllim Qasım bəy Zakirin lirikasını keçdi. Danışığındakı sərbəstlikdən və təmkinli davranışından məlum olurdu ki, müəllim öz fənnini bilir. Lakin, bilik azdır. Müəllimin danışığında Zakir şeirinə, bu şeirin incəliklərinə xüsusi məhəbbət hiss olunmurdu. Müəllimin dilində də quru kitab cümlələri, rəsmi ibarələr bolbol idi (“ifşa etmişdir”, “zəmanəsini satira atəşinə tutmuşdur”, “öz əksini tapmışdır”, “ifadə etmişdir” və s. kimi). Ədəbiyyat müəllimləri bir dəfə başa düşməlidirlər ki, cansız, standart, quru, rəsmi ifadə tərzləri, oynaq təbiətə malik olan, varlığı həyat eşqi ilə çırpınan uşaqların beynini yorur. Onlara canlı həyat və canlı dil lazımdır!

...Olduğum dərsdə isə müəllim cansız standart cümlələrlə şagirdlərdə Zakir kimi qüdrətli söz ustasına məhəbbət oyada bilmədi. Zakir lirikasından danışan müəllim, hər şeydən əvvəl, lirikanın nədən ibarət olduğunu, onun mahiyyətini dərindən bilməlidir. Yalnız bundan sonra hər hansı bir şairin lirikasını, bu lirikanın xüsusiyyətlərini şagirdə də izah etmək mümkündür. Zakirin lirikasını keçən müəllim dərslikdən başqa şairin öz kitabını alıb, onu bir daha mütaliə etsəydi, pismi olardı? Məgər Zakir şeirinin böyüklüyü və mahiyyəti dərslikdə yazılan bir-iki cümlə ilə izah oluna bilərmi? Zakir lirikasının mahiyyəti heç də onun şeirlərində nikbinliyinmi, ya bədbinliyinmi çox olmasında, yaxud daha artıq qəzəl formasındamı, tərcibənd formasındamı yazmasında, yaxud Füzuliyə nəzirə yazıb-yazmamasında deyil (dərsində olduğum müəllim Zakirin lirikası adına yalnız bunlardan danışdı). Bu şeirlərin mahiyyəti, hər şeydən əvvəl, tərənnüm olunan duyğuların həyatiliyində, incəliyində və şairin sənətkarlığındadır. Məgər pismi olardı ki, müəllim Zakirin əyanilik üçün “Müntəxəbat!” kitabında olmayan və özünün ən gözəl hesab etdiyi şeirlərdən birisini oxuyaydı, onu misra-misra uşaqlara izah edəydi, klassik şeirimizin gözəlliyini açıb göstərəydi.

Bu işdə müəllimlərimizdən də əvvəl, ən birinci günahkar dərslik yazan müəlliflərdir. Demək lazımdır ki, bizim ədəbiyyat dərsliklərimiz çox cansıxıcıdır. Bizcə, ədəbiyyat dərsliklərindəki nöqsanlardan geniş şəkildə danışıb bunu birdəfəlik həll etməyin vaxtı çoxdan gəlib çatmışdır. Ədəbiyyat dərsliklərində klassik sənətkarlarımızın yaradıcılığı əsasən birtərəfli, yalnız məfkurəvi nöqteyi-nəzərdən izah olunur. Şairin sənətkarlığı, onun bədii sözdən istifadə etmək bacarığı, ümumən bədii sözün nələrə qadir olduğundan qətiyyən danışılmır. Bədii əsərlər çox hallarda sosioloji nöqteyi-nəzərdən təhlil olunur.

...Yeri gəlmişkən, burada bir məsələdən də danışmaq lazım gəlir. Bizə elə gəlir ki, orta məktəb üçün dərslik yazan müəllif ədəbiyyat tarixinin xronoloji düzgünlüyünə riayət etmək naminə bütün yazıçıları dərsliyə salmağa məcbur deyil. Çünki bu, həm də uşaqların yükünü ağırlaşdırır.

Ədəbiyyat tarixi orta məktəbin VIII sinfindən başlayır. VIII, IX, X siniflərdə bu tarix xronologiya əsasında qurulmalıdır. Lakin, natamam orta məktəbin V, VI, VII sinifləri üçün yazılan dərsliklərə uşaqların tərbiyəsinə müvafiq olan əsərləri salmaq lazımdır. Ancaq, təəssüf ki, bu siniflər üçün dərslik yazan müəlliflər də əksərən ədəbiyyat tarixinin xronologiyasına riayət etməyə çalışırlar.

...Fikrimizi yekunlaşdıraraq deməliyik ki, istər dərslik yazan müəlliflərin, istərsə də müəllimlərin birinci məqsədi balalarımızın tərbiyəsinə düzgün istiqamət vermək, onlarda xalqımıza, Vətənimizə, ədəbiyyat və mədəniyyətimizə böyük məhəbbət oyatmaqdır! Bunun üçün öz fəaliyyətimizə bir daha baxmaq və onu zamanın səviyyəsinə yüksəltmək ən vacib vəzifəmizdir.

**Bəxtiyar VAHABZADƏ**

**“Azərbaycan müəllimi”, 20 oktyabr 1960-cı il, №79**

## Təqaüdə çıxmasını istəmədiyim yeganə "Azərbaycan müəllimi"

**Bilənlər bilir, mən bir müddətdir ki, işimi dəyişmişəm. Təhsil televiziyasında çalışıram. İşlədiyim binada “Azərbaycan müəllimi” qəzetinin də redaksiyası yerləşir. Gün ərzində dəfələrlə redaksiyanın qarşısından keçirəm. Hər dəfə oradan ötüb gedəndə qəlbimə bir istilik hopur, gözlərim istər-istəməz redaksiyanın qapısına yönəlir.**



Orxan Pamuk buna “tıkırtı”, Mikayıl Müşfiq “ürpəriş” deyir, mən “əsinti” deyərdim. Bəlkə də həmin an ürəyimin kardioqramması çıxarılsa, orada heç bir dəyişiklik görünməz, ancaq mən, mən həmən an qəlbimdə baş qaldıran həzin əsintini duyuram.

Nədən ki, dünyada, eləcə də ölkəmizdə qəzetçilik ənənəsinin sürətlə yox olub getdiyi bir zamanda yaşayırıq. Fastfudların ləziz yeməkləri, reels-lərin verilişləri/filmləri, telefon qalereyalarının müxtəlif şəkil redaktəsi tətbiqlərinin fotostudiyaları əvəz etdiyi bir dövrdə qəzet ənənəsi də sürətlə tarixə qovuşur.

Demək olar, daha heç kəs qəzet almır. Qəzet çapı ənənəsi də sürətlə tarixə qovuşaraq misgərlik, sərraclıq, papaqçılıq və sair unudulmuş, gərəksiz peşələrin sırasında yer almağa başlayır.

Hegel nə zamansa deyirdi ki, qəzet oxumaq realist insanın səhər duasıdır. Artıq səhər dualarımızı "Telegram" xəbərləri, reels-lərlə edirik.

Təbii ki, ömrünü yazıya, kitaba xərcləmiş, kağızın qoxusunu ən yaxşı ətirlərə tay tutan adamlar üçün gerçəkliklə barışmaq çox ağırdır.

Biz zamanın nəbzinə uyum sağlamağa çalışsaq da istəməzdik ki, qəzet ənənəsi yox olub getsin. Əlbəttə, ilk baxışda bunda qorxulu heç nə yoxdur. Sadəlövhcəsinə “Artıq bütün məlumatlar mavi lövhələrdədir, qəzet ənənəsi keçmişdə qaldı”, - deyə bilərik. Özümüzdə təpər taparıq: Sadəcə nostalgiya hissindən arınıb reallığa adaptasiya olmaq gərəkdir, vəssəlam. Lakin mənə elə gəlir ki, qəzetlərin saytlara, kitabların elektron lövhələrə çevrilməyinin fəsadını nə zamansa bəşəriyyət olaraq yaşayacağıq.

Bütün günü fastfud yeyən adamın orqanizmində hansı tibbi, fizioloji dəyişikliklər baş verirsə, kağız medianın, ənənəvi kitab çapının yox olması da cəmiyyətin düşüncəsində buna bənzər fəsada gətirib çıxarır, buna əminəm.

Ümid edirəm ki, bu ənənə tamamilə yox olub getməyəcək, hansısa şəkildə qorunub saxlanılacaq.

O baxımdan demək istəyirəm ki, belə bir zamanda – aldığımız informasiyaların amansız sürətlə bir-birini əvəzləyib unutqanlıq uçurumuna yuvarlandığı, baxdığımız reels-lərin ovqatımızı üskük oynadanlar kimi bir göz qırpımında dəyişdirdiyi bir dövrdə – bir qrup insanın zamanın tələblərinə sinə gərərək yenə də qəzet çap etməsi, əski ənənələri yaşatması nəcib və diqqətəlayiq fəaliyyətdir.

Onun üçün də mən hər dəfə redaksiyanın qarşısından keçəndə elə bilirəm ki, sarıtəhər qapının arxasında kimlərsə sehirli-sirli bir işlə məşğuldurlar. Nə zamansa Qutenberqin kitab çapı necə möcüzəvi bir iş idisə, indiki zamanda qəzet çapı mənə eyni dərəcədə heyrətamiz görünür.

Hər şeyin elektronlaşdığı bir dövrdə bir qrup insanın kağız mətbuatın səngərini qoruması adamı toxtaq tutur. Kimlərinsə hələ də zamanın çağırışlarına aldanmaması adamın təpərini artırır.

Deməli, hələ ümid var...

Bu gün isə “Azərbaycan müəllimi” qəzetinin 92 yaşı tamam olur. Bir mətbu orqan üçün 92 yaş böyük ömürdür. Bu mənada “Azərbaycan müəllimi” bir brenddir, ənənədir, tarixin bir parçasıdır.

Bu orqanın sıralarında Azərbaycanın dəyərli şair və yazıçıları da çalışıblar. Kimlər yoxmuş qəzetin imzaları sırasında: Üzeyir Hacıbəyli, Səməd Vurğun, Mirzə İbrahimov, Sabit Rəhman...

Mən bu qəzetə uzun ömür arzulayıram. Arzulayıram ki, 92 yaşlı bu qəzet – bu qocaman mətbu orqanı, Azərbaycan mətbuat tarixinin bir parçasına çevrilmiş bu nəşr – uzun illər yaşasın.

Və “Azərbaycan müəllimi” nə qədər qocalsa da, heç vaxt təqaüd yaşına çatmasın.

**Mirmehdi AĞAOĞLU**

## DÖVLƏT PROQRAMI TƏQAÜDÇÜSÜ




*Xaricdə təhsil arzusu bəzən bir qəbul məktubundan çox əvvəl — məktəb illərində, dərsliklərdə və ekranlarda dünyanın nüfuzlu universitetlərini görərkən başlayır. Bu arzunu gerçəyə çevirmək isə təkcə yüksək akademik nəticə deyil, illərlə davam edən hazırlıq, ardıcıllıq və uğursuzluqlardan sonra yenidən cəhd etmək iradəsi tələb edir. "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022—2028-ci illər üçün Dövlət Proqramı"nın 2026-cı il qaliblərindən biri olan Rafət Bayramov üçün də bu yol asan olmayıb. 8 universitetindən qəbul alan gəncimiz sonda uzun illər arzusunda olduğu Mançester Universitetini seçib. O, magistratura təhsilini burada kibertəhlükəsizlik istiqamətində davam etdirəcək. Rafət Bayramov "Azərbaycan müəllimi"nə müsahibəsində xaricdə təhsil almaq arzusundan, Dövlət Proqramına hazırlıq prosesindən və gələcəkdə planlarından danışıb.*

# "Əsl gözlədiyim xəbər ən sonda gəldi"

### "Texnoloji cihazları işlətməkdən çox, necə işlədiyini anlamağa çalışırdım"

Həmsöhbətimiz orta təhsilini Zaqatala şəhər İsmət Qayıbov adına 4 nömrəli tam orta məktəbdə alıb və məktəbi fərqlənmə attestatı ilə başa vurub.

O, 2022-ci ildə ali məktəblərə qəbul imtahanlarında 617 bal toplayaraq Bakı Mühəndislik Universitetinin "Kompüter elmləri" ixtisasına qəbul olunub. Universitetdə təhsil aldığı illərdə akademik hazırlığını beynəlxalq imtahan nəticələri ilə də möhkəmləndirib. SAT imtahanından 1320, IELTS-dən isə 7.5 nəticə əldə edib.

2026-cı ildə Bakı Mühəndislik Universitetindən məzun olan Rafət deyir ki, informasiya texnologiyaları və kompüter sahəsinə marağı əslində daha erkən yaşlarda formalaşıb: "Kiçik yaşlarımdan texnoloji cihazlara marağım var idi. Bu, bir qədər şablon səslənə bilər, amma marağım sadəcə onlardan istifadə etməklə məhdudlaşmırdı. Cihazların necə işlədiyini anlamağa çalışır, tənzimləmələrini dəyişir, verdikləri reaksiyanı müşahidə edirdim.Təbii ki, əksər hallarda onları sıradan çıxarırdım və sonradan mütəxəssis çağırıb bərpa etdirmək lazım gəlirdi".

İllər keçdikcə uşaqlıq marağının peşəkar istiqamətə çevrildiyini deyən həmsöhbətimiz bakalavr təhsili müddətində xüsusilə kibertəhlükəsizlik sahəsində özünü inkişaf etdirməyə başlayıb.

### "Bir gün həmin azərbaycanlı gənclərin sırasında ola biləcəyimi düşünürdüm"

Rafət Bayramovun xaricdə təhsil arzusu hələ orta məktəb illərində formalaşıb. Dünyanın nüfuzlu universitetlərində oxuyan azərbaycanlı gənclərin uğurları onun üçün həm nümunə, həm də gələcək hədəfə çevrilib:"Dərsliklərdə, televiziyada və internetdə nüfuzlu ali təhsil müəssisələrində oxuyan azərbaycanlı gəncləri gördükcə bir gün onların sırasında ola biləcəyim düşüncəsi məni daim ruhlandırırdı. Özümü qlobal səviyyədə inkişaf etdirmək, dünyanın qabaqcıl təhsil sistemlərindən birində ən müasir İT biliklərinə yiyələnmək istəyirdim".

Lakin xaricdə nüfuzlu universitetdə təhsil almaq arzusu ilə yanaşı, bunun yaratdığı maliyyə yükünü də nəzərə almaq lazım idi. Rafətin sözlərinə görə, universitetdən qəbul almaq qədər təhsil xərclərini qarşılayacaq imkan əldə etmək də gənclər üçün bir şansdır. Dövlət Proqramı onun üçün məhz bu iki məqsədi bir araya gətirir: "Dövlət Proqramının yaratdağa imkan sayəsində gənclərimizin xaricdə yüksək səviyyəli təhsil alaraq sonradan ölkəmizin inkişafına töhfə verməsi mənim düşüncələrimlə tam üst-üstə düşürdü. Həm arzuladığım universitetdə təhsil almaq, həm də əldə etdiyim biliklərlə ölkəmə fayda vermək imkanı mənim üçün əvəzolunmaz hissdir".

Rafət bildirir ki, uşaqlıqdan vətənpərvər ruhda böyüdüyü üçün gələcək fəaliyyətində ölkəsinə hansı formada fayda verə biləcəyini daim düşünüb. Dövlət Proqramının yaratdığı imkan da onun bu hədəfinə uyğun gəlib.

### Müraciət prosesini ailəsindən gizli saxlayıb

Rafət Bayramovun Dövlət Proqramına gedən yolunun maraqlı məqamlarından biri bütün hazırlıq və müraciət prosesini valideynlərindən gizli aparmasıdır.

Onun sözlərinə görə, xaricdə təhsil almaq, xüsusilə də bunu Dövlət Proqramı çərçivəsində reallaşdırmaq ən az onun qədər valideynlərinin də arzusu idi: "Ona görə hazırlıq və müraciət proseslərini bir növ "gizli" davam etdirdim. Heç kimdən yardım almadan bütün prosesi özüm idarə etdim. Məqsədim nəticəni əldə etdikdən sonra valideynlərimə böyük sürpriz etmək idi".

Rafət ilk mərhələdə xarici universitetlərin və Dövlət Proqramının əsas tələblərindən biri olan beynəlxalq dil sertifikatını əldə edib. Bakalavr təhsilini ingilis dilində alması və anasının xarici dil müəllimi olması bu mərhələdə onun üçün üstünlük yaradıb.

Sənədləri ekspertiza mərhələsindən uğurla keçdikdən sonra Dövlət Proqramının müsahibə mərhələsinə dəvət olunub:"Ümumilikdə 8-9 aya yaxın çox həyəcanlı və gərgin bir hazırlıq, müraciət dövrü keçdim.İndi isə qalib olmağın sevinc və qürurunu ailəmlə birlikdə yaşayıram".

### "İllərlə xəyalını qurduğum Mançester Universitetindən müsbət cavab gəldi"

Səkkiz universitetdən qəbul almaq böyük uğur olsa da, Rafət etiraf edir ki, universitetlərdən müsbət cavablar bir-bir gəldikcə onun gözlədiyi əsas xəbər hələ gəlməmişdi:"Digər universitetlərdən qəbul xəbərləri gələndə, əlbəttə, sevinirdim. Amma məni həqiqətən böyük xəyallar qurmağa sövq edən, ən çox cavabını gözlədiyim universitet qərarını sona saxlamışdı.Nəhayət, illərdir xəyalını qurduğum, bu yola başladığım ilk andan orada təhsil almaq düşüncəsinin belə, məni həyəcanlandırdığı Mançester Universitetindən müsbət cavab gəldi".

Onun Mançester Universitetini seçməsində ali məktəbin beynəlxalq nüfuzu ilə yanaşı, kibertəhlükəsizlik üzrə güclü akademik strukturu və proqramın peşəkar hədəflərinə uyğunluğu əsas rol oynayıb: "Universitetin təhsil alacağım istiqamət üzrə çox güclü akademik strukturu və peşəkar müəllim heyəti var.Proqram daxilində keçəcəyim fənlər gələcək karyera planlarımla tam üst-üstə düşür. Tədris strukturu real əmək bazarının tələblərinə uyğun yenilənir və tələbələrin yalnız nəzəri deyil, praktik baxımdan da peşəkar kimi hazırlanmasına istiqamətlənir".

### Niyə kibertəhlükəsizlik?

Bakalavr təhsilinin ilk illərində informasiya texnologiyalarının müxtəlif istiqamətləri ilə tanış olan Rafət zaman keçdikcə kibertəhlükəsizliyin onun üçün xüsusi maraq kəsb etdiyini deyir.Bu seçimdə əsas amillərdən biri rəqəmsal sistemlərin yaradılması ilə yanaşı, həmin sistemlərin qorunmasının da strateji əhəmiyyət daşıdığını görməsi olub:"Bakalavr təhsilim davam etdikcə anladım ki, rəqəmsal infrastrukturların təhlükəsizliyini təmin etmək ən az onları qurmaq və inkişaf etdirmək qədər önəmlidir. Ölkəmiz sürətlə rəqəmsallaşır və bu rəqəmsal mühitin mühafizəsi ciddi məsuliyyət, eyni zamanda yüksək səviyyəli mütəxəssislər tələb edir".

Rafət məhz buna görə kibertəhlükəsizlik sahəsində ixtisaslaşaraq Azərbaycanda rəqəmsal sistemlərin qorunmasına töhfə verməyi qarşısına məqsəd qoyub:"Bu sahədə yüksəkixtisaslı mütəxəssis kimi formalaşmaq, ölkəmizin rəqəmsal təhlükəsizliyinin gücləndirilməsinə öz töhfəmi vermək istəyirəm".

### Motivasiya keçicidir, intizam və əzmkarlıq isə...

Rafət Bayramov xaricdə təhsil arzusunda olan gənclərə öz təcrübəsindən çıxış edərək deyir ki, uğura aparan yolda yalnız motivasiyaya güvənmək kifayət deyil. Motivasiya keçicidir, intizam və əzmkarlıq isə qalıcıdır.

O, hesab edir ki, insan qarşısına konkret hədəf qoyduqdan sonra qarşılaşdığı uğursuzluqları son nəticə kimi qəbul etməməlidir:"Uğursuzluqdan heç vaxt məyus olmaq lazım deyil. Əksinə, ondan dərs çıxarıb daha güclü şəkildə yenidən cəhd etmək lazımdır. Mən özüm də xaricdə təhsil yolunda iki dəfə uğursuz olmuşam. Amma inamımı itirmədim və üçüncü cəhdimdə məqsədimə çatdım. Üstəlik, bu dəfə əldə etdiyim nəticə əvvəl nail olmağa yaxın olduğum imkanlardan qat-qat daha yaxşı oldu".

**Aynur ARAZ,**
**Mərkəzi Aran və Şəki-Zaqatala üzrə regional təmsilçi**

## "Tədqiqat məktəbi"

# Layihəsi çərçivəsində beynəlxalq mentorluq proqramı yekunlaşıb

**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin "Elm və təhsil sahəsində ictimai təşəbbüslərin dəstəklənməsi" qrant müsabiqəsi çərçivəsində "İnnovativ İnkişafa Dəstək" İctimai Birliyi tərəfindən həyata keçirilən "Tədqiqat məktəbi: Gənc alimlər üçün Beynəlxalq Akademik Mentorluq və Tədqiqat Proqramı" layihəsi çərçivəsində təşkil olunan təlim və mentorluq proqramı yekunlaşıb. "Azərbaycan müəllimi" xəbər verir ki, layihəyə ümumilikdə 647 gənc tədqiqatçı müraciət edib. Seçim mərhələsinin nəticələrinə əsasən, 35 tədqiqatçı proqramda iştirak etmək hüququ qazanıb.**



Proqramın əsas məqsədi gənc tədqiqatçıların elmi-tədqiqat və akademik yazı bacarıqlarını inkişaf etdirmək, onları beynəlxalq akademik mühitin tələblərinə hazırlamaq və müasir tədqiqat yanaşmaları ilə tanış etmək olub. Proqram çərçivəsində tədqiqat metodologiyası, tədqiqat suallarının hazırlanması, akademik yazı, elmi məqalələrin hazırlanması, beynəlxalq nəşr standartları, akademik etika, elmi nəticələrin təqdimatı və beynəlxalq indeksli jurnallarda nəşr imkanları üzrə təlimlər keçirilib. Təlimlər Azərbaycan İdman Akademiyasının əməkdaşı və Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi Rasim Həsənzadə, həmçinin Xəzər Universitetinin müəllimi Murad Əliyev və İstanbul Universitetinin doktorantı Abdulla Xanayev tərəfindən aparılıb.

Proqramın mühüm hissəsini beynəlxalq alimlərin iştirakı ilə keçirilən ustad dərsləri və mentorluq görüşləri təşkil edib. Türkiyənin və digər ölkələrin müxtəlif ali təhsil və elmi müəssisələrindən dəvət olunmuş professorlar öz elmi təcrübələrini gənc tədqiqatçılarla bölüşüblər. Türkiyə Respublikasının öndə gedən Marmara, Hacettepe və Sivas Cümhuriyyət universitetlərindən dəvət olunmuş professorlar Meral Balcı, Səlahəddin Gelbal və Ali Çiçek, eləcə də Çin Xalq Respublikasından Çjetszyan Beynəlxalq Araşdırmalar Universitetindən dəvət olunmuş dr. Vəfa Əsgərova proqramda iştirak edərək müxtəlif mövzular üzrə təqdimatlar və müzakirələr aparıblar. Eyni zamanda, ADA Universitetinin dosenti, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Elmi Müəssisələrlə İş şöbəsinin müdiri İltifat İbrahimov da proqram çərçivəsində qonaq mühazirəçi qismində dəvət olunaraq iştirakçılarla öz akademik və peşəkar təcrübəsini bölüşüb.

Görüşlər zamanı iştirakçılar beynəlxalq akademik mühitdə tədqiqat aparmaq, elmi məqalə hazırlamaq və onu beynəlxalq jurnala təqdim etmək, həmçinin elmi əməkdaşlıq imkanları ilə bağlı suallarını ekspertlərə ünvanlayıblar. İştirakçılar öz tədqiqat mövzularını professor və tədqiqatçılarla müzakirə edərək onların təcrübə və tövsiyələrindən yararlanıblar.

Təlimlərin praktiki hissəsində iştirakçılar öz tədqiqatları üzərində işləyiblər. Onlar tədqiqat suallarını dəqiqləşdirib, metodologiyalarını nəzərdən keçirib, elmi məqalələrin quruluşu və akademik yazı qaydaları ilə bağlı praktiki tapşırıqlar yerinə yetiriblər. Bu yanaşma iştirakçılara təlim zamanı öyrəndiklərini öz tədqiqatları üzərində sınamaq imkanı verib.

İnteraktiv şəkildə keçirilən mentorluq görüşləri gənc tədqiqatçıların müxtəlif akademik yanaşmalarla tanış olmasına və öz tədqiqatları ilə bağlı yeni fikirlər əldə etməsinə şərait yaradıb. Beynəlxalq alimlərlə birbaşa ünsiyyət iştirakçılara elmi əməkdaşlıq və akademik şəbəkələşmə imkanları barədə daha ətraflı məlumat əldə etmək imkanı da verib.

35 gənc tədqiqatçının iştirak etdiyi proqramın sonunda iştirakçılar elmi-tədqiqat və akademik yazı üzrə biliklərini genişləndirib, beynəlxalq nəşr prosesinin əsas tələbləri ilə daha yaxından tanış olub və müxtəlif ölkələrdən olan alimlərin təcrübəsindən faydalanıblar. Proqramın nəticəsi olaraq iştirakçıların yüksək reytinqli elmi jurnallarda məqalələrinin nəşr olunması və akademik yazı sahəsində faydalı məlumatları əhatə edən "Akademik Yazı Bələdçisi" adlı kitabçanın hazırlanaraq çap olunması planlaşdırılır.

Qeyd edək ki, "Tədqiqat məktəbi: Gənc alimlər üçün Beynəlxalq Akademik Mentorluq və Tədqiqat Proqramı" Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin "Elm və təhsil sahəsində ictimai təşəbbüslərin dəstəklənməsi" qrant müsabiqəsi çərçivəsində həyata keçirilib. Layihənin məqsədi gənc alimlərin elmi potensialının inkişafına, tədqiqat və akademik yazı bacarıqlarının gücləndirilməsinə və onların beynəlxalq akademik mühitlə əlaqələrinin genişləndirilməsinə dəstək olmaqdır.

# PISA beynəlxalq qiymətləndirmə tədqiqatı ilə bağlı məlumatlandırma görüşü keçirilib

**Sentyabrın 4-də PISA (Programme for International Student Assessment — Şagird Qiymətləndirilməsi üzrə Beynəlxalq Proqram) beynəlxalq qiymətləndirmə tədqiqatı ilə bağlı məlumatlandırma görüşü keçirilib.**

Görüşdə təhsil ictimaiyyəti və media nümayəndələri, eləcə də digər qonaqlar iştirak ediblər.

Məlumatlandırma görüşündə Təhsil İnstitutunun (ARTİ) direktor səlahiyyətlərini müvəqqəti icra edən, nazir müşaviri Elnur Əliyev PISA beynəlxalq qiymətləndirmə tədqiqatı ilə bağlı geniş təqdimatla çıxış edib.






Təqdimat zamanı beynəlxalq qiymətləndirmələrdə çərçivənin müəyyənləşdirilməsi, beynəlxalq standartların formalaşdırılması və bu standartların hansı meyarlar əsasında müəyyən edilməsi barədə məlumat verilib. Eyni zamanda PISA tədqiqatının məqsədi və əsas xüsusiyyətləri diqqətə çatdırılıb.

Bildirilib ki, üç ildən bir keçirilən PISA tədqiqatında 15 yaşlı şagirdlərin oxu, riyaziyyat və təbiət elmləri üzrə bilik və bacarıqları qiymətləndirilir. Tədqiqat çərçivəsində hər dəfə bu istiqamətlərdən biri əsas sahə kimi müəyyənləşdirilir. 2029-cu ildən etibarən tədqiqatın dörd ildən bir keçirilməsi nəzərdə tutulur.

Elnur Əliyev çıxışında vurğulayıb ki, PISA uşaqların yalnız nə bildiyini deyil, əldə etdikləri bilik və bacarıqları real həyat situasiyalarında necə tətbiq edə bildiklərini də qiymətləndirir. Qeyd edib ki, PISA reytinq yarışı deyil, ölkələrə öz təhsil sistemlərini təhlil etmək və inkişaf istiqamətlərini müəyyənləşdirmək imkanı verən etibarlı beynəlxalq qiymətləndirmə platformasıdır.

Bildirilib ki, Azərbaycan PISA tədqiqatında 2018-ci ildən iştirak edir. PISA 2025 tədqiqatında isə əvvəlki illərdən fərqli olaraq region məktəbləri də tədqiqata cəlb olunub.

Çıxış zamanı təhsilin keyfiyyətinin qiymətləndirilməsi məqsədilə Azərbaycanın müxtəlif milli və beynəlxalq qiymətləndirmə tədqiqatlarında iştirak etdiyi diqqətə çatdırılıb. Bu çərçivədə müxtəlif yaş qruplarında təhsilalanların beynəlxalq və milli qiymətləndirmələrə cəlb olunduğu qeyd edilib.

Təqdimatdan sonra görüş sual-cavab formatında davam etdirilib.

# Şagirdin öz biliyini həyatda tətbiq edə bilməsi nə qədər vacibdir?




*PISA tədqiqatı əsasında*
**TƏHLİL**

## Şagirdin öz biliyini həyatda tətbiq edə bilməsi nə qədər vacibdir?

Məktəbdə yüksək qiymət alan şagird gündəlik həyatda qarşılaşdığı problemi eyni uğurla həll edə bilirmi? Riyazi düsturu bilmək həmin biliyi real situasiyada tətbiq edə bilmək deməkdirmi? Mətni oxumaqla onun məzmununu təhlil etmək, mənbənin etibarlılığını qiymətləndirmək və nəticə çıxarmaq eyni bacarıqdırmı? Təbiət elmlərinə dair dolğun biliklər əldə etməklə həmin bilikləri müvafiq sahədə tətbiq etmək arasındakı fərq nədən xəbər verir? PISA-nın əsas mahiyyəti bu suallardan başlayır: proqram məktəb proqramının nə qədər əzbərləndiyini deyil, şagirdin əldə etdiyi bilik və bacarıqları yeni və real həyat situasiyalarında nə dərəcədə istifadə edə bildiyini araşdırır.

**PISA-nın əsas sualı:** “Şagird nə bilir?” yox, “Şagird bildiyi ilə nə edə bilir?”

## PISA necə yarandı və nəyi qiymətləndirir?

PISA - Programme for International Student Assessment, yəni Şagird Qiymətləndirilməsi üzrə Beynəlxalq Proqram İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən həyata keçirilən genişmiqyaslı beynəlxalq tədqiqatdır. Proqram ötən əsrin 90-cı illərinin sonunda yaradılıb, ilk əsas qiymətləndirmə 2000-ci ildə keçirilib. Adətən PISA üçillik dövrü əhatə edir; pandemiya səbəbindən 2021-ci il üçün nəzərdə tutulan qiymətləndirmə 2022-ci ildə birillik fasilə ilə reallaşdırılıb.

PISA-nın hədəf qrupu əsasən icbari təhsilin sonuna yaxınlaşan 15 yaşlı şagirdlərdir. Bu seçim təsadüfi deyil. Məqsəd ölkələrdə məktəb strukturları və sinif bölgüləri fərqli olsa belə, şagirdlərin formal təhsilin mühüm bir mərhələsini başa vurmağa yaxın olduqları yaşda onların cəmiyyət və gələcək həyat üçün zəruri hesab olunan bilik və bacarıqlarını müqayisə etməkdir. PISA 15 yaşlı şagirdlərin müasir cəmiyyətdə tam iştirak üçün vacib olan bilik və bacarıqları nə dərəcədə mənimsədiklərini, eyni zamanda onların öz biliklərini məktəbdən kənarda necə tətbiq etdiklərini araşdırır.

Qiymətləndirmənin üç standart istiqaməti oxu, riyaziyyat və təbiət elmləridir. Hər PISA dövründə bu sahələrdən biri əsas istiqamət kimi daha geniş ölçülür. Məsələn, 2000 və 2009-cu illərdə oxu, 2003 və 2012-ci illərdə riyaziyyat, 2006 və 2015-ci illərdə təbiət elmləri əsas sahə olub. 2018-ci ildə əsas sahə yenidən oxu, 2022-ci ildə isə riyaziyyat seçilib. 2025-ci ildə yenidən təbiət elmi daha geniş qiymətləndirməyə cəlb edilib. Qeyd edək ki, PISA 2022 çərçivəsində yaradıcı düşüncə və maliyyə savadlılığı kimi əlavə istiqamətlər də qiymətləndirilib.

Lakin PISA-nın ən vacib fərqi ölçdüyü istiqamətlər deyil, həmin istiqamətlərə yanaşma tərzidir. İƏİT sənədlərində PISA “savadlılıq” anlayışını məktəb proqramının məzmununu təkrar etməkdən daha geniş mənada işlədərək şagirdin biliyi anlama, şərhetmə, əsaslandırma və yeni vəziyyətlərdə tətbiqetmə qabiliyyətini önə çıxarır.

## “Bilir” və “bacarır” arasındakı fərq

Ənənəvi məktəb imtahanlarında şagirddən müəyyən düsturu, qaydanı və ya tərifi xatırlamaq, daha sonra onu oxşar tapşırıqda tətbiq etmək tələb oluna bilər. PISA isə qiymətləndirmədən öncə aşağıdakı suallara cavab axtarır:

- *Şagird ona naməlum situasiyada hansı bilikdən istifadə etməli olduğunu müəyyənləşdirə bilirmi?*
- *Məlumatın hansının vacib, hansının ikinci dərəcəli olduğunu ayıra bilirmi?*
- *Bir neçə mümkün həll yolundan daha uyğun olanını seçib qərarını əsaslandıra bilirmi?*

Riyaziyyatda bu yanaşma sadəcə hesablama aparmaqdan ibarət deyil. Şagird gündəlik həyatda qarşılaşa biləcəyi vəziyyəti riyazi modelə çevirməli, uyğun həll üsulu seçməli və əldə etdiyi nəticəni situasiyanın məntiqi ilə əlaqələndirməlidir. Yüklənmiş məqalədə PISA-nın riyaziyyat tapşırıqlarının böyük hissəsinin problem həlli üçün riyazi bacarıqlar tələb edən real həyat situasiyaları ilə əlaqəli olduğu qeyd edilir.

Oxu istiqamətində də məqsəd mətndə açıq yazılmış məlumatı tapmaqla yekunlaşmır. Şagird mətndəki əsas fikri müəyyən etməli, müxtəlif hissələr arasında əlaqə qurmalı, müəllifin mövqeyini və məqsədini anlaya, faktla rəyi fərqləndirə və məlumatın etibarlılığını qiymətləndirə bilməlidir. Rəqəmsal informasiya mühitinin genişləndiyi dövrdə bu bacarıqların əhəmiyyəti məktəb divarlarından xeyli kənara çıxır.

Təbiət elmlərində isə şagirdin faktı bilməsi ilə həmin faktın hansı sübutlara söykəndiyini anlaması arasında fərq qoyulur. Elmi hadisəni izah etmək, məlumatdan nəticə çıxarmaq, iddianı sübutdan ayırmaq və elmi biliyi tanış olmayan vəziyyətə tətbiq etmək PISA-nın ölçməyə çalışdığı əsas bacarıqlar sırasındadır.

Beləliklə, PISA təhsildə çox vacib bir keçidi nümayiş etdirir: bilik məqsəd olmaqdan çıxaraq problem həllinin alətinə çevrilir. Bu, faktiki olaraq “nə qədər bilirsən?” sualından “bildiyinlə nə edə bilirsən?” sualına keçiddir.

## PISA niyə sadəcə üç istiqamət imtahanı deyil?

PISA-nın ictimaiyyətə ən çox görünən hissəsi oxu, riyaziyyat və təbiət elmləri üzrə nəticələrdir. Lakin proqramın analitik dəyəri yalnız idrak tapşırıqlarından ibarət olsaydı, onun təhsil siyasətinə təsiri xeyli məhdud qalardı. PISA-nın güclü tərəfi nəticəni kontekstdən ayırmamasıdır.

İƏİT-nin qiymətləndirmə və analitik çərçivəsinə əsasən, şagirdlərlə yanaşı məktəb rəhbərlərinə də kontekst sorğuları təqdim olunur; bir sıra ölkələr müəllim və valideyn sorğularında da iştirak edir. Bu sorğularda şagirdlərin ailə və sosial-iqtisadi vəziyyəti, məktəbə münasibəti, öyrənmə vərdişləri, sinif və məktəb mühiti, məktəb resursları, idarəetmə, müəllim təcrübələri və digər amillər haqqında məlumat toplanır.

Yüklənmiş elmi araşdırmada da göstərilir ki, PISA nəticələrini şərh etmək üçün şagirdin sosial-iqtisadi vəziyyəti, müəllim başına düşən şagird sayı, məktəbin resursları, tədrisin keyfiyyəti, məktəbəqədər təhsildə iştirak, davamiyyət və məktəb iqlimi kimi amillər nəzərə alınır. Bu yanaşma nəticənin arxasında duran səbəbləri daha sistemli görməyə imkan verir.

Məsələn, iki ölkənin PISA-da orta göstəricisi bir-birinə yaxın, lakin həmin nəticələrin strukturu tam fərqli ola bilər. Bir sistemdə yüksək və aşağı sosial-iqtisadi statuslu şagirdlər arasındakı fərqin böyük, digərində isə daha kiçik olması mümkündür. Eyni orta göstərici bərabərlik baxımından tam fərqli mənzərə yarada bilər. Deməli, PISA yalnız “nəticə nədir?” deyil, “nəticə kimlər arasında və hansı şəraitdə formalaşır?” sualına da cavab axtarır.

## Məktəb mühiti niyə diqqət mərkəzindədir?

Şagirdin nəticəsini yalnız dərslik, proqram və ya fərdi qabiliyyətlə izah etmək mümkün deyil. Məktəbdə təhlükəsizlik hissi, müəllim-şagird münasibəti, sinifdə nizam-intizam, müəllimin əks əlaqəsi, məktəbin maddi və rəqəmsal resursları, yaşıdlarla əməkdaşlıq, məktəbə aidlik hissi və digər amillər öyrənmənin keyfiyyətinə təsir edə bilər.

“PISA 2018 nəticələrinə əsasən məktəb mühitinin şagirdlərin akademik nailiyyətlərinə təsirinin tədqiqi” adlı məqalədə məktəbin növü və yerləşdiyi ərazi, bir müəllimə düşən şagird sayı, siniflərin ölçüsü, müəllim-şagird münasibəti, məktəb resurslarının keyfiyyəti, internetə çıxış, müəllimin əks-əlaqə tezliyi və fənninə göstərdiyi həvəs kimi göstəricilər məktəb mühitinin əsas komponentləri sırasında təqdim olunur.

Bu, təhsil siyasəti üçün vacib fərq yaradır. Əgər sistem yalnız yekun balı görürsə, problemin simptomunu müəyyənləşdirir. Əgər həmin balın hansı şəraitdə formalaşdığını da təhlil edirsə, problemin səbəblərinə yaxınlaşır. Məsələn, müəyyən sahədə zəiflik avtomatik olaraq kurikulumun zəif olduğunu göstərmir; problem müəllim hazırlığında, dərs metodikasında, məktəb resurslarında, davamiyyətdə, məktəb iqlimində və ya bu faktorların birgə təsirində ola bilər.

## PISA təhsil siyasətinə necə təsir edir?

PISA nəticələri beynəlxalq müqayisə imkanı yaratmaqla yanaşı, bir çox ölkələrdə təhsil siyasətinə təsir göstərib. İƏİT-nin “The Policy Impact of PISA” araşdırmasında PISA-nın iştirakçı ölkələrin əksəriyyətində məktəb sisteminin performansını qiymətləndirmək və islahat gündəliyini formalaşdırmaq üçün istifadə olunan etibarlı beynəlxalq müqayisə vasitəsinə çevrildiyi qeyd olunur.

Bu təsir birbaşa və avtomatik deyil. PISA hansı siyasətin mütləq tətbiq edilməli olduğunu demir. O, ölkəyə göstəricilər, müqayisələr və əlaqələr təqdim edir. Siyasi qərar verənlər isə həmin məlumatı ölkənin sosial, iqtisadi və institusional xüsusiyyətləri ilə birlikdə şərh etməlidirlər. Buna görə PISA-nın ən düzgün funksiyası “resept vermək” deyil, “diaqnostik sual yaratmaq”dır.

PISA nəticələrinin sağlam istifadəsi üç mərhələdə düşünülə bilər. Birincisi, sistemin güclü və zəif tərəflərini müəyyənləşdirmək. İkincisi, nəticələrin hansı qruplar, məktəb şəraiti və təcrübələrlə əlaqəli olduğunu araşdırmaq. Üçüncüsü isə bu məlumatları milli tədqiqatlar, məktəb səviyyəli məlumatlar və digər qiymətləndirmələrlə birləşdirərək konkret siyasət qərarlarına çevirməkdir.

## Azərbaycan PISA-ya nə vaxt qoşulub?

PISA 2025-in ilkin nəticələrinin bu yaxınlarda açıqlanması gözlənilir. Azərbaycanın PISA tədqiqatında iştirakına gəldikdə, ölkəmiz ilk dəfə 2006-cı ildə bu prosesə qatılıb. Daha sonra ölkə 2009, 2018 və 2022-ci il qiymətləndirmə dövrlərinə qoşulub.

2018-ci ildən etibarən Azərbaycan PISA-da Bakı məktəbləri ilə təmsil olunub. Burada vacib olan məsələ nəticələrin özündən daha çox ölkənin beynəlxalq müqayisə məlumatlarına çıxış əldə etməsidir. Eyni metodologiya ilə müxtəlif dövrlərdə məlumat toplamaq təhsil sistemindəki dəyişiklikləri dövrlər üzrə izləməyə, beynəlxalq tendensiyalarla müqayisə etməyə və milli siyasətin hansı sahələrində əlavə araşdırmaya ehtiyac olduğunu müəyyənləşdirməyə imkan verir.

Azərbaycan üçün PISA-nın ən böyük dəyəri “başqa ölkələrdən neçə bal fərqimiz var?” sualından daha genişdir. Proqramın məlumatlarından kurikulumun funksionallığı, müəllimlərin peşəkar inkişafı, məktəb mühiti, sosial-iqtisadi bərabərlik, məktəbəqədər təhsil, resursların bölgüsü və məktəb idarəetməsi kimi istiqamətlərdə əlavə suallar formalaşdırmaq üçün istifadə oluna bilər.

## Azərbaycan üçün hansı yanaşma daha faydalı ola bilər?

PISA-da iştirakın faydasını artırmaq üçün nəticəyə son nöqtə kimi deyil, araşdırmanın başlanğıcı kimi yanaşmaq daha məqsədəuyğun hesab edilir. Bunun üçün bir neçə istiqamət xüsusi əhəmiyyət daşıyır.

Birincisi, kurikulumla gündəlik dərs təcrübəsi arasındakı əlaqə araşdırılmalıdır. Kurikulumda “tənqidi düşüncə”, “problem həlli” və “tətbiq” kimi anlayışların yazılması kifayət deyil. Əsas məsələ şagirdin gündəlik dərsdə nə qədər tez-tez yeni situasiya ilə qarşılaşması, qərar verməsi, arqument tapması və həll yolunu əsaslandırmasıdır.

İkincisi, müəllimlərin peşəkar inkişafı PISA-nın ölçdüyü kompetensiyaların sinifdə necə formalaşdırıldığı ilə əlaqələndirilə bilər. Riyaziyyatda yalnız düzgün cavaba deyil, həll strategiyasına; oxuda yalnız məlumatı tapmağa deyil, mənbəni təhlil etməyə; təbiət elmlərində yalnız faktı xatırlamağa deyil, sübutdan nəticə çıxarmağa fokuslanan metodikalar daha funksional öyrənmə mühiti yarada bilər.

Üçüncüsü, məktəb səviyyəsində məlumatlardan istifadə mədəniyyəti gücləndirilməlidir. Beynəlxalq tədqiqatdan gələn nəticələr mərkəzi hesabatda qalmamalı, məktəb rəhbərləri və müəllimlər üçün anlaşılan analitik materiallara çevrilməlidir. Məktəb öz şagirdlərinin oxu vərdişlərini, davamiyyətini, məktəbə aidlik hissini, sinif iqlimini və digər göstəriciləri izləyə bilmirsə, milli səviyyəli nəticələrin praktik təsiri məhdud qala bilər.

Dördüncüsü, bərabərlik göstəricilərinə xüsusi diqqət lazımdır. Orta göstəricinin dəyişməsi mühüm olsa da, nəticələrin sosial-iqtisadi qruplar, məktəblər və ərazilər üzrə necə bölündüyü təhsil sisteminin ədalətliliyi haqqında daha dərin məlumat verir.

Beşincisi, beynəlxalq təcrübəni “kopyalamaq” deyil, “uyğunlaşdırmaq” prinsipi əsas götürülməlidir. Sinqapurun sistem ardıcıllığı, Estoniyanın peşəkar etimad və muxtariyyət modeli faydalı nümunələrdir, lakin onların hər biri öz tarixi, sosial və institusional kontekstində formalaşıb. Azərbaycan üçün əsas məsələ həmin siyasətlərin hansı mexanizmlə işlədiyini müəyyənləşdirmək və milli şəraitə uyğun elementləri seçməkdir.

## PISA bizə hansı sualı verməlidir?

Nəticə etibarilə, PISA-nın ən böyük dəyəri ölkələri bir cədvəldə sıralamaq deyil. Onun əsas gücü təhsil sisteminə kənardan baxmaq, müxtəlif ölkələr arasında müqayisə aparmaq və nəticələrin arxasında duran amillər haqqında sistemli məlumat toplamaq imkanındadır.

Bu güzgüdə yalnız imtahan balını deyil, məktəbin resurslarını, sosial fərqləri, müəllim və məktəb rəhbərliyinin rolunu, şagirdin məktəbdə necə hiss etdiyini və məktəb təhsilinin bilikləri nə dərəcədə funksional bacarıqlara çevirdiyini görmək mümkündür.

PISA qüsursuz ölçmə vasitəsi deyil və təhsilin bütün məqsədlərini əhatə etmir. Lakin onun yaratdığı beynəlxalq məlumat bazası təhsil haqqında müzakirəni yalnız şəxsi müşahidələr və fərziyyələr üzərində deyil, müqayisə edilə bilən empirik məlumatlar əsasında aparmaq üçün geniş imkan yaradır.

Buna görə də PISA-nın təhsil sistemlərinə verdiyi əsas sual “neçə bal topladınız?” deyil. Əsas sual daha fundamentaldır: məktəbdə keçirdiyi illərdən sonra şagird öyrəndiyi biliklə real həyatda nə edə bilir? Bu suala verilən cavab isə bir imtahanın deyil, bütövlükdə təhsil sisteminin keyfiyyəti haqqında düşünmək üçün başlanğıc nöqtədir.

**Vaqif FƏTULLAYEV,**
**təhsil mütəxəssisi, tədqiqatçı, jurnalist**

# İDMAN



# "İdman mənim çıxış yolum idi"

## 60 yaşında da hədəfinə doğru qaçan çempion müəllim

**İdmançı uşaqların universitetə hazırlaşmaq bəhanəsi ilə idmanı buraxdığı yaşda o, idmana başlayıb. Kəndlərinə gələn bədən tərbiyəsi (indiki fiziki tərbiyə) müəllimi ilə məşq edib respublika çempionu olub. Atletika üzrə Azərbaycan SSR-in yığma komandasına seçilib, məzun olana qədər kənddən Bakıya təlim məşq toplanışına gedib. Sonra müəllim olub, ömrünü müəllimliyə bağlayıb. Beynəlxalq dərəcəli hakim olub idmandan da uzaqlaşmayıb. Bir sözlə, "Azərbaycan müəllimi"ndə hekayəsini təqdim etdiyimiz Nemət Heydərovun ömür yolu kitabdan ayrılmadan da çempion olmağın, çempion kimi akademik uğurlar qazanmağın mümkünlüyünün bariz sübutudur. Nemət Heydərov tanınmış hakim, "Əməkdar müəllim"dir.Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında Atletikanın həm nəzəriyyəsini, həm praktikasını tədris edir və bir çoxlarının arzuladığı böyük nailiyyətlər qazanıb. Bir çox ilklərə imza atıb.**

### Kənd məktəblisi ölkənin yığma komandasında

Nemət müəllim məktəbi çox sevib. Deyir məktəb yollarını qaça-qaça gedib-gəlib. Ona görə o çempion olanda heç kimdə təəccüb yaratmayıb: "Əslində, hərbçi olmaq istəyirdim, ola bilsəydim...".

VI sinfə qədər bu arzuyla yaşayıb: "İdman bir az da hərbə yaxındır və mən idmanla məşğul olmaqdan zövq aldım. Çünki qaçmağı da sevirdim, məktəbə qaça-qaça gedib-gəlirdim. Evimizlə məktəb arasında meşə vardı. Həmin meşəni qaçaraq keçirdim. İndi düşünürəm ki, mənim üçün nə qədər təhlükəli imiş".

Beləliklə, çox bərk qaçıb məktəbli Nemət. Onun Masallı rayonunun Məmmədrzakücə kəndindən başlayan qaçış yolu əvvəl meşənin o tayındakı məktəbə, sonra çempionluğa qədər uzanıb. "Çempion olanda hələ kənd məktəbinin şagirdi idim", - deyən müsahibimi çempion edən onun bədən tərbiyəsi müəllimi (indi fiziki tərbiyə müəllimi — R.D.) olub: "Məktəbimizə Bədən tərbiyəsi müəllimi gəldi. Yaşılxan İmamyarov gənc və dinamik bir müəllim idi. Siniflər arasında tez-tez yarışlar təşkil edirdi. Diqqətini çəkən uşaqları seçib məktəbimizin yaxınlığında boş əraziyə çağırır, orda bizə məşq keçirdi. Onun gəlişi ilə məktəbimizdə idman dirçəldi. O bizə idmanı sevdirdi, bu sahənin nə qədər aktual olduğunu göstərdi. Qaçmaq üzrə bacarığımı qiymətləndirdi, inkişaf etdirdi və çempion etdi".

Müəlliminin yönləndirməsi ilə Nemət Heydərov 13 yaşından daha böyük məqsədə, daha ali hədəfə doğru qaçmağa başlayıb. İdman onun üçün bir seçim deyil, cəmiyyət arasına çıxmaq, mövqe tutmaq üçün bir çıxış yolu idi: "Kənd uşağı idim, idmanı həyatımın mərkəzinə qoymağım da bir az da bununla bağlı idi. İdman mənim çıxış yolum idi".

Amma onun getdiyi yollar çoxları üçün cığır sayılırdı: "15 yaşımda yığma komandaya düşdüm, rayon, sonra zona, daha sonra ölkə çempionu oldum.".

İdman, sadəcə çıxış yolu olmayıb, onun həyatını yaşıdlarından fərqləndirib, rəngləndirib. O, yığma komandanın tərkibinə daxil edilib: "Yığma komandaya əyalətdən olan uşaqlar düşə bilmirdilər, çünki Bakıda infrastruktur vardı və bu şəraitdə yetişən uşaqlar çox güclü idi. Təsəvvür edin ki, Bakıya təlim məşq toplanışlarına, ya da yarışlara gəlirdim, mən qaçış üçün xüsusi bir yol olduğunu, xüsusi geyimlər hazırlandığını onda öyrəndim, atletlərə məxsus yüngül ayaqqabıları Bakıya gələndə gördüm. Hətta indi də sintetik qaçış yolu hər yerdə yoxdur, ancaq Bakıda, Mingəçevirdə və Zaqatalada var".

### Məktəbli ikən qazanmağı öyrənib

Kasıb bir ailənin üzvü olan Nemət Heydərov üçün Bakıya gedib-gəlmək çətin deyildimi? Nemət müəllim deyir öz qazancı ona yetib: ". Gediş-gəlişim təmin edilirdi, qalmağımı aldığım qonorarla ödəyirdim".

Tələbə olanda da təqaüd alan 2 nəfərdən biri olub: "Həm yığmanın üzvü idim, həm də qiymətlərim yaxşı idi, ona görə institutda əlaçı təqaüdü alırdım. Hətta yeri düşəndə ailəm üçün nəsə etməyə çalışırdım. Amma atam icazə vermirdi, "Sən oxu, mənim bəsimdir", - deyirdi".

### Müəllimlikdə "gizli arzusu"

1983-cü ilə qədər parlaq yeniyetmə atlet kimi irəliləyib, inkişaf edib. Həmin il həyatının növbəti mərhələsi üçün yeni qapı açılıb və o, tələbə olub. Bu qapıda onun orta məktəbdən sevdiyi hər iki xətt — kitablar və atletika birləşirdi. Həm idman nailiyyətləri, həm təhsili ilə diqqət çəkib və uğur əldə edib. 1989-cu ildə indiki Bədən Tərbiyəsi və İdman Akademiyasında müəllim kimi işə başlayıb. Beləliklə, taleyi tələbə kimi daxil olduğu Akademiyaya ömürlük bağlanıb.

İndi tələbələrinin sevimli müəllimidir: "Mühazirə materiallarını yeniləyir, idman sahəsində nə yenilik olsa, dərslərimizdə qeyd edirəm. Gənclərdə motivasiya yaratmaq üçün tez-tez məşhur idmançılarla, dünya çempionları ilə onların görüşlərini təşkil edirəm. Bu, məşhur idmançılarımız üçün də böyük stimul olur. İdmançı kimi bilirəm ki, qazanmaq, yaxşı yaşamaq bir yana, şöhrət, qiymətləndirilmək idmançılar üçün çox vacibdir".

Nemət müəllim deyir müəllimlikdə "gizli arzusu" olub, onu da reallaşdırıb: "Atam Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirib 32 yaşında kəndimizdə ilk ali təhsilli ibtidai sinif müəllimi oldu. Arzularımdan biri də atamın təhsil aldığı universitetin müəllimi olmaq idi. Bu arzuma çatdım. 2 il universitetdə fiziki tərbiyə müəllimi işlədim. Ən qürurverici anları həmin illərdə yaşadım".

### "Beynəlxalq Avropa Oyunlarında mənə xüsusi hədiyyə verildi"

"İngilis dilini bilmədiyim üçün olimpiya kimi yarışlarda baş hakim ola bilmədim. Amma yeganə azərbaycanlıyam ki, başqa ölkələrdə - Gürcüstanda, Rusiyada, Türkmənistanda baş hakim işləmişəm.

Həmişə bir imkan, fürsət axtarmışam ki, millətimiz, dövlətimiz üçün bir iş görüm. Mənim üçün o imkan ilk dəfə 2014-cü ildə yarandı. Avropa oyunlarına hazırlıq məqsədi ilə ölkəmizdə atletika növündə beynəlxalq yarış təşkil edildi. Məni beynəlxalq Atletika Federasiyasına ezam etdilər. Mən bu fürsəti layiqincə dəyərləndirdim. Beynəlxalq Avropa oyunlarında iştirak etdim. Həmin iştiraka görə yarışın sonunda mənə xüsusi hədiyyə verildi".

### MRİO-nun hakimi olub

Məktəblilərin Respublika İdman Olimpiadasında da hakim olan Nemət Heydərov bunun əhəmiyyətini belə dəyərləndirir "Ən aktual məsələlərdən biridir. Böyüməkdə olan nəslin sağlamlığı deməkdir idman, vətənpərvər böyüməyidir. Kollektiv ruhun formalaşması deməkdir. Şagirdlər özünə istiqamət seçir, həmin istiqamətdə rəqabət aparmağı öyrənirlər. Qaçış və üzgüçülük elə idman növləridir ki, burda sürət, güc, dözümlülük, elastiklik, çəldlik, çeviklik var və bütün bu keyfiyyətləri uşaqlarda inkişaf etdirir. İdmanla məşğul olan şagirdlər xarakterli olurlar. Sıradan bir tədbirdə IV, VI, hətta VII sinifdə oxuyan şagird kəşf edirsən. Uşaqların bacarıqlarını üzə çıxarmaq baxımından olimpiada çox vacib tədbirdir".

İdman mütəxəssisi hesab edir ki, oxumaq da, idman etmək də paralel aparılmalıdır və valideynlər də buna xüsusi diqqət yetirməlidirlər: "Öz təcrübəmdən deyirəm ki, həm yaxşı oxumaq lazımdır, həm də yaxşı idmançı olmaq".

### 60 yaşlı çempion müəllim yeni hədəfinə doğru gedir

Nemət Heydərovun fəaliyyəti hər 2 istiqaməti əhatə edib. Həm bir idmançı həyatı yaşayır, həm də bir müəllim ömrü sığdırıb 60 illik həyatına. O, idman həyəcanını, uğurun həyəcanını yaşayıb: ""Mən seçilmişlərdənəm, "Fəxri bədən tərbiyəsi və idman işçisi"yəm. İş yerimdə ən yaxşı statusdayam, 8 Əməkdar müəllimdən biriyəm.. 2 il əvvəl isə dosent elmi adı aldım".

Nemət Heydərov deyir 60 yaşının olması planların bitdiyi anlamına gəlmir. Yenə böyük hədəfi var: "2 il sonra dünya çempionatı olacaq. Orda da hakim olmaq istəyirəm".

**Ruhiyyə DAŞSALAHLI**
Foto: **Kənan QAFAROV**

# ETİHİ üzvləri Müəllimlərin XXII Yay İdman Oyunlarını 6 medalla başa vurublar

**Bolqarıstanın Albena şəhərində keçirilən Müəllimlərin XXII Yay İdman Oyunlarına yekun vurulub.**




Təhsil üzrə Avropa Həmkarlar İttifaqı Komitəsinin (ETUCE) üzv təşkilatlarının nümayəndələrinin iştirak etdiyi beynəlxalq yarışlarda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) üzv təşkilatı Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının (ETİHİ) təmsilçiləri uğurlu nəticələr əldə ediblər.

ETİHİ təmsilçiləri yarışları 4 birincilik və 2 üçüncülük olmaqla, ümumilikdə 6 mükafatla başa vurublar.

Mini-futbol üzrə komandamız final görüşündə Polşa təmsilçisini 5:4 hesabla məğlub edərək turnirin qalibi olub.

Stolüstü tennis üzrə komanda yarışlarında qadınlardan ibarət komandamız 1-ci, kişilərdən ibarət komandamız isə 3-cü yeri tutub.

Qadınlar arasında stolüstü tennis üzrə fərdi yarışda Nizami rayonu 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin məşqçi-müəllimi Rüfət Əliyev 1-ci, Xətai rayonu 56 nömrəli tam orta məktəbin müəllimi Xəyalə Qiyasova isə 3-cü yeri tutub. Şahmat üzrə fərdi yarışda isə Şəmkir rayonu Kimya və Biologiya Təmayüllü Liseyinin müəllimi Bünyad Əsgərov 1-ci yerə layiq görülüb.

Sonda qaliblər Bolqarıstan Müəllimlər Birliyinin prezidenti Yanka Takeva, Bolqarıstan Müstəqil Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti Todor Kapitanov, Bolqarıstan İşçilərinin İdman və Sağlamlıq Federasiyasının prezidenti, Balkan İşçi İdmanı Assosiasiyasının vitse-prezidenti Desislava Yagodin və Varna şəhərinin meri Blagomir Kotsev tərəfindən kubok və medallarla təltif olunublar.

Beynəlxalq yarış təhsil işçiləri arasında sağlam həyat tərzinin təşviqində, eləcə də həmkarlar ittifaqı üzvləri arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında mühüm rol oynayır.

Qeyd edək ki, 2004-cü ildən etibarən keçirilən bu yarışlarda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş respublika idman yarışlarında yüksək nəticələr göstərərək seçilmiş ittifaq üzvləri iştirak edirlər.




**"Təhsil sektoru ölkənin gələcəyini müəyyən edən strateji bir sahədir. Burada icra olunan layihələr, hüquqi tənzimləmələr və islahatların daxildən necə işlədiyini görmək, həm də gənc mütəxəssis kimi bu prosesə töhfə vermək mənim üçün çox maraqlı idi". Bu maraq ona güc gəlib müsabiqəyə qoşulub və IV "Maarifçi" tələbə-məzun proqramının 53 iştirakçısından birinə çevrilib. İndi Elm və Təhsil Nazirliyinin Audit şöbəsində təcrübə keçir. Səidə Sadıqova imtahanlarda həmişə yüksək nəticə göstərən, girdiyi hər sınaqdan üzüağ çıxan parlaq bir gəncdir.**

# "Maarifçi" mənə real iş mühiti verməklə yanaşı, yaxşı bacarıqlar da qazandıracaq

## Uşaqlıqdan fərqlənib

Orta təhsilini Bakıda Qorxmaz Baxşıyev adına 179 nömrəli tam orta məktəbdə alıb. İctimai fəal şagird kimi dəfələrlə məktəbdə fərqləndirilib. Üzərinə məsuliyyət götürməyi də hələ o vaxtdan öyrənib. Məktəbin Kiçik Akademiyasında yüksək vəzifə qazanıb.

Böyüyüb tələbə olub. 627 balla Bakı Dövlət Universitetinin tələbəsi olmaq hüququ əldə edib. "Hüquqşünaslıq" ixtisasına SABAH qruplarında yiyələnib.

2025-ci ildə bakalavr təhsilini fərqlənmə ilə bitirib və 88.5 balla Bakı Dövlət Universitetinin magistraturasına qəbul olunub. Bu təhsil səviyyəsində "Cinayət prosesi, kriminalistika, məhkəmə ekspertizası, əməliyyat axtarış fəaliyyəti (hüquqşünaslıq)" istiqaməti üzrə davam edib.

Başını ucaldan uğurlarından birinə bu ilin iyulunda imza atıb. Belə ki, dövlət qulluğu vəzifələrinə qəbul imtahanlarında yüksək nəticə toplayaraq AC kateqoriyası üzrə ölkə birincisi olub:

"Bu il iki dəfə dövlət qulluğu imtahanlarına qatıldım. Aprel ayında qatıldığım ilk imtahanda 86 bal toplayaraq BB1 sertifikatı, iyul ayında olan ikinci imtahanda AC kateqoriyası üzrə 89 bal toplayaraq AC1 sertifikatı aldım".

## "Maarifçi"yə onu cəlb edən səbəblər var

"Maarifçi" olmağına gəlincə, diqqətini bu proqrama cəlb edən əsas məqam — ölkənin təhsil sisteminə yaxından bələd olmaq və real təsir gücünə malik layihələrin tərkib hissəsinə çevrilmək imkanı idi. Təhsil sahəsində islahatların və yeni təşəbbüslərin necə idarə olunduğunu daxildən görmək, nəzəri biliklərimi real iş mühitində tətbiq etmək istəyirdim".

Amma hesab edir ki, "Maarifçi" ona real iş mühiti verməklə yanaşı, başqa yaxşı bacarıqlar da qazandıracaq: "Məncə, Maarifçi", sadəcə təcrübə deyil, həm də gənc mütəxəssis kimi formalaşmağım üçün güclü bir platformadır. Elə bir platforma ki, burada hüquq biliklərimi və təcrübəmi dövlət idarəçiliyi və təhsil sahəsində tətbiq edə bilirəm".

Deyir ki, cinayət hüququ sahəsinə böyük marağı tələbəlikdən başlayıb: "Magistratura təhsili alarkən bu sahəni daha dərindən araşdırmaq, analitik düşünmək və hüquqi məsələlərə daha ətraflı baxmaq imkanım oldu. Məhz bu maraq məni magistraturada cinayət prosesi, kriminalistika, məhkəmə ekspertizası və əməliyyat-axtaraış fəaliyyəti kimi spesifik bir istiqaməti seçməyə sövq etdi. Yaxşı ki seçmişəm, bu gün təhsil prosesində yenilik kimi müasir kriminalistik texnologiyalar, rəqəmsal sübutların toplanması metodları və əməliyyat-axtarış fəaliyyətinin incəlikləri ilə dərindən tanış oluruq".

Beləliklə, kitablardan öyrəndiklərini təhsil sahəsində tətbiq edib qanunların necə işlədiyini öz gözləri ilə görür: "Maarifçi"yə qədər məhkəmə, prokurorluq orqanlarında və vəkil bürosunda təcrübə keçmişəm. Bu təcrübə sahələri daha konkret idi. "Maarifçi" proqramı isə mənə məsələlərə daha geniş institusional, idarəetmə və quruculuq prizmasından baxmaq imkanı yaradır. Bura, sadəcə hüquq tətbiqi deyil, həm də gələcək təhsil siyasətinin və sosial layihələrin daxildən necə formalaşdığını öyrənə biləcəyim unikal bir platformadır".

## Niyə məhz dövlət qulluğu?

Səidə Sadıqova universitet illərindən bəri öz sahəsində mütəxəssis kimi formalaşmağa çalışıb. Hesab edir ki, dövlət strukturları bu bilikləri tətbiq etmək üçün ən sistemli platformadır. Burada iş prosesləri konkret qanunvericiliyə, intizama və standartlara əsaslanır. Bu cür müəyyənliyi olan, qayda-qanunun işlədiyi bir mühitdə çalışmaq mənim şəxsi iş prinsiplərimə tam uyğundur. Bura mənim üçün peşəkar inkişaf yeridir".

## Səmimi iş mühitində işləmək

Səidə Sadıqova deyir ki, idarəetmənin daxili mexanizmlərini, işlərin necə şəffaf, nizamlı qurulduğunu öyrənmək böyük bir təcrübədir: "Şöbəyə gələndən ilk diqqətimi çəkən mütəxəssislərin işinə olan diqqəti oldu. İşləri həqiqətən çoxdur, amma buna baxmayaraq, ən xırda detal üzərində belə çox diqqətlə işləyirlər. Ən gözəl məqam isə odur ki, buradakı kollektiv gənc təcrübəçilərə qarşı çox açıqdır. Bizi sadəcə "kənardan baxan təcrübəçi" kimi görmürlər. Şöbənin mütəxəssisləri hər bir tapşırığın məntiqini səbirlə başa salır, öz zəngin təcrübələrini bizimlə bölüşürlər. İş mühiti həm tələbkar, həm də bir-birinə dəstək olan çox səmimi bir mühitdir. Onlardan hər gün yeni bir şey öyrənirəm".

**Ruhiyyə DAŞSALAHLI**

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

*aşağıda adıçəkilən fakültədə vakant vəzifəni tutmaq üçün müsabiqə*

**ELAN EDİR:**

*Rəssamlıq fakültəsi - Dekan – 1 yer*

Müsabiqədə fakültədə kadr hazırlığı aparılan ixtisaslara uyğun ən azı 5 il elmi-pedaqoji təcrübəyə və peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İncəsənət təmayüllü fakültənin dekanı vəzifəsini tutmaq üçün müsabiqədə qeyd olunan tələblərə uyğun gələn şəxslərlə yanaşı, müvafiq ixtisaslar üzrə elmi dərəcəsi və adı olmayan, lakin həmin sahədə dövlət təltifləri olan şəxslər də iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə təqdim etməlidirlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili-100)

***REKTORLUQ***

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** Mob.: (010) 253-30-86; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 15598 **Sifariş:** 1144

**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Sabirabad rayon** Əskərbəyli kənd tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Zülfüqarov Səməndər Ramid oğluna verilmiş E-488584 nömrəli tam orta təhsil haqqında attestat və 2023-cü ildə verilmiş E-613096 nömrəli tam orta təhsil haqqında dublikat attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Dondar Quşçu kənd tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Qasımov Nihat Zaman oğluna verilmiş E-529160 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Yenikənd kənd tam orta məktəbi 2025-ci ildə bitirmiş Yaralıyev Fəqan Əfqan oğluna verilmiş E-825705 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 279 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Yaşar Nisanur İhsan qızına verilmiş E-648633 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 1 nömrəli məktəb-liseyi 2016-cı ildə bitirmiş Məmmədzadə Elşən Rövşən oğluna verilmiş A-553440 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Mahmudavar kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 1984-cü ildə bitirmiş Nəsirova (Xanbabayeva) Yasəmən Surxay qızına verilmiş 662365 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 3 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Hüseynova Heyran Vaqif qızına verilmiş B-236331 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Respublika Olimpiya İdman Liseyinin** IX sinfini 2023-cü ildə bitirmiş Abbasov Fərhad Asif oğluna verilmiş C-768080 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 33 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Kərimov Elçin İsmayıl oğluna verilmiş A-265805 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 1994-cü ildə bitirmiş Hüseynova Hicran Vahid qızına verilmiş 187778 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2022-ci ildə Heydərli Azər Məzahir oğluna verilmiş C-139304 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Şirvanlı kənd tam orta ümumtəhsil məktəbi 2011-ci ildə bitirmiş Çobanova Zairə Xanlar qızına verilmiş A-061487 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 4 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Nurullayeva (Nuruzadə) Günel Nurəddin qızına verilmiş A-231600 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 4 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Nuruzadə Arzu Nurəddin qızına verilmiş A-466103 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Kolleci** tərəfindən 2002-ci ildə Məhərrəmova Aytən Nəsir qızına verilmiş AB-II-080281 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 220 nömrəli məktəb-liseyi 1988-ci ildə bitirmiş Seyidova Fatmaxanım Hümbət qızına verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Əliyeva Sevinc Bəxtiyar qızına verilmiş E-314426 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 89 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş İlyasova (Həsənova) Aidə Bahadur qızına verilmiş A-181674 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 225 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Bayramov Şəhriyar Məcid oğluna verilmiş A-656832 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Dövlət Humanitar Kolleci** tərəfindən 2007-ci ildə Quliyeva Zümrüd Şaiq qızına verilmiş BB-II-057098 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 225 nömrəli tam orta məktəbi 2025-ci ildə bitirmiş İbrahimli Cəfərsadiq Ədalət oğluna verilmiş E-787792 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Sabirli kənd ümumi orta ümumtəhsil məktəbin VIII sinfini 1989-cu ildə bitirmiş Bağırova Raya Balaxan qızına verilmiş A-517449 nömrəli natamam orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**"Türk Dünyası Atatürk Liseyi"ni** 2003-cü ildə bitirmiş Telçi Emrah Ali oğluna verilmiş A-646885 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 170 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Məmmədov Xaliq Xanoğlan oğluna verilmiş M-12 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 30 nömrəli tam orta ümumtəhsil məktəbi 1990-cı ildə bitirmiş Orucova Səidə Oqtay qızına verilmiş AK-619676 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 1 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Abbasov Rasim Tofiq oğluna verilmiş E-619004 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Humanitar Kolleci** (indiki Lənkəran Dövlət Universiteti nəzdində Sosial Aqrar Texnoloji Kollec) tərəfindən 2020-ci ildə Məmmədzadə (Abbaszadə) Çinarə Dövlət qızına verilmiş AA-131912 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Nərimanabad kənd tam orta məktəbin IX sinfini (İndiki Balıqçılar qəsəbə 2 nömrəli tam orta ümumtəhsil məktəb) 2011-ci ildə bitirmiş Əlizadə (Əliyev) Fərid Həsənbala oğluna verilmiş 083137 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Nərimanabad kənd tam orta məktəb (indiki Balıqçılar qəsəbə 2 nömrəli tam orta ümumtəhsil məktəbi ) 1999-cu ildə bitirmiş Əliyeva Gülnar Oktay qızına verilmiş 366334 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 4 nömrəli məktəb-liseyi 2013-cü ildə bitirmiş Cəfərzadə Aytel Siyavuş qızına verilmiş A-239739 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 300 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Abbasov Xaqani Şəhriyar oğluna verilmiş E-673155 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** Əmirvarlı kənd tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Zeynallı Nəsib Rasib oğluna verilmiş B-708914 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** "Dəfinə" texniki-riyaziyyat təmayüllü liseyi 2019-cu ildə bitirmiş Abdullayeva (Əsədli) Lalə Ülfət qızına verilmiş E-224190 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 132-134 nömrəli liseyi 2025-ci ildə bitirmiş Mahmudov Mahmud Samir oğluna verilmiş E-874810 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 154 nömrəli tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Qurbanova Xəyalə Elbrus qızına verilmiş C-006297 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 194 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Ələsgərli Rəsul Rövşən oğluna verilmiş E-667547 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 32 nömrəli tam orta ümumtəhsil məktəbi 2016-cı ildə bitirmiş Əzizova Leyla Çingiz qızına verilmiş A-515607 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 314 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Quliyev Zaur Səfər oğluna verilmiş C-245845 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Qəribov Rahib Xanlar oğluna verilmiş 158 nömrəli ümumi orta təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.